**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN QƏHRƏMANLIQ EPOSUNUN MUSİQİ SİNERGETİKASI

| | |
|---|---|
| İxtisas: | 6213.01 – Musiqi sənəti |
| Elm sahəsi: | Sənətşünaslıq |
| İddiaçı: | **Kamilə Hüseyn qızı Dadaş-zadə** |

Elmlər doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Azərbaycan ənənəvi musiqisi və müasir texnologiyalar" kafedrasında yerinə yetirilmişdir.

Elmi məsləhətçi: sənətşünaslıq doktoru, professor
**Tariyel Aydın oğlu Məmmədov**

Rəsmi opponentlər: sənətşünaslıq doktoru, professor
**Maklıqin Aleksandr Lvoviç**

sənətşünaslıq doktoru, professor
**İradə Tofiq qızı Köçərli**

sənətşünaslıq doktoru
**Gültəkin Baycan qızı Şamilli**

sənətşünaslıq doktoru, dosent
**İnara Eldar qızı Məhərrəmova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasında fəaliyyət göstərən BED 2.36 Disssertasiya şurası

Dissertasiya şurasının sədri: sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor
______________**Ülviyyə İsmayıl qızı İmanova**

Dissertasiya şurasının elmi katibi: sənətşünaslıq doktoru, dosent
______________**Leyla Ramiz qızı Zöhrabova**

Elmi seminarın sədri: sənətşünaslıq doktoru, dosent
______________**Aytac Elxan qızı Rəhimova**

# DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi**. XXI yüzilliyin birinci yarısında dünyada baş verən qlobal siyasi-sosial olaylar bəşəriyyət tarixinin hazırkı dövrünün taleyüklü önəmini müəyyənləşdirir. Şahidi olduğumuz hərbi münaqişə və kataklizmlər, ekosistem və humanitar sahədə müşahidə edilən sarsıntılar və közərən ümidverici dəyişikliklər sübut edir ki, bəşəriyyət seçim qarşısındadır, müəyyyən anlamda bifurkasiya məqamındadır. Bu gün xalqların hər biri bütün məsuliyyəti ilə dərk etməlidir ki, yenidən qurulan reallıqda, gələcəkdə özünə yer alacaq fərqli dünya nizamında onun bərabərhüquqlu vahid kimi mövcudluğu digər amillərlə yanaşı, həm də məxsusi etnosinerjisinin (termin müəllifə məxsusdur) bütün daxili potensialı ilə aktuallaşmasından asılıdır. Əsrlərdən əsrlərə ötürülən **etnosinerji** noosferanın sezilməz qatları ilə üzvi şəkildə bağlı olan, özündə etnosun konseptual dünyagörüşü və dünyaduyumunun özəlliklərini ehtiva edən anlayışdır. Bu kontekstdən çıxış edərək qeyd etmək olar ki, türk xalqlarının etnosinerjisinin əsas, ana axarlarından biri onların tarixi salnaməsinin parlaq inikası olan epik ənənə ilə bağlıdır. Qəhrəmanlıq eposu türk xalqlarının mənəviyyat dayaqlarından biridir desək, yanılmarıq. Onun özündə qapsadığı məna yaradıcılıq sınırlarına, incəsənət sədlərinə sığmır. Türksoylu xalqların epik mədəniyyətində etnosun passionarlıq enerjisi, özünüdərk prosesi, istiqbal mücadiləsi, dövlətçilik düşüncəsi, koqnitiv xüsusiyyətləri, etnopsixoloji özünəməxsusluğu və ən nəhayət, hüdudsuz enerji mənbəyi ilə qırılmaz rabitəsi öz əksini tapmışdır. Mübaliğəyə yol vermədən qeyd etmək olar ki, epik abidələr türk xalqlarının milli bənzərsizliyinin qorunub saxlanılmasında son dərəcə önəmli rol oynamışdır. Bu gün dünyada gedən kürəsəlləşmə prosesləri kontekstində türk xalqlarının qədim ənənələrə malik olan zəngin epik irsinin araşdırılması və təfsiri, onun şifrələnmiş gizlin və eyhamlarının müasir elmi paradiqma müstəvisində deşifrələnməsi, bilincaltı qatında kodlaşdırılmış passionar enerjinin ötürülməsi yaşadığımız taleyüklü bifurkasiya məqamında müəyyənləşdirici rol oynaya bilər. Çağdaş dövrün göstərilən obyektiv sosial-ideoloji panoraması dissertasiya mövzusunun aktuallığını şərtləndirən əsas amillərdən biridir.

Eyni zamanda qeyd etmək vacibdir ki, araşdırılan mövzu müasir humanitar düşüncə müstəvisində də aktuallıq kəsb edir. Dünya məkanında inteqrasiya proseslərinin sürətlə inkişaf etdiyi bir dövrdə bütün hadisələrin kompleks şəklində, vahid bir sistem kimi qavranılmasına əsaslanan dünyagörüşü, ictimai şüur formalaşır. Bu bir həqiqətdir ki, yaşadığımız dövrdə heç bir fundamental elmi problem, istər dəqiq elmlər, istərsə də humanitar sahədə olsun, ümumi proseslərdən təcrid edilmiş halda həll oluna bilməz. Məhz bu səbəbdən xüsusi aktuallıq kəsb edən problemlərin həllində son onilliklərdə geniş vüsət almış fənlərarası elmi istiqamətlərin metodoloji prinsiplərinin tətbiqi qaçılmazdır. Özünün konseptual mahiyyəti ilə seçilən belə istiqamətlərdən biri də sinergetikadır. Öz mənşəyini riyaziyyat, fəlsəfə, fizika elmlərindən götürən sinergetika universal metodlara malikdir. Bu gün ümumbəşəri problemlərin, dünya sivilizasiyasının fundamental məsələlərinin həllində sinergetik yanaşma tərzi önəmli rol oynayır. Hətta sinergetik paradiqmanın nümayəndələri tərəfindən belə bir mülahizə də irəli sürülür ki, qeyri-xəttilik konsepsiyası dünyanın ümumelmi mənzərəsinin yaranmasının özülünü təşkil edə bilər. Bu baxımdan cəsarətlə söyləmək olar ki, sinergetika bu gün sadəcə, bir elmi istiqamət deyil. Yaşadığımız böhran dövründə sinergetika müxtəlif sistemlərin fəaliyyətini izah edə biləcək konseptual idrak nəzəriyyəsidir.

Dissertasiya mövzusu musiqi elminin müasir paradiqması kontekstində də aktuallıq kəsb edir. Çağdaş dövrün etnomusiqişünaslığının qarşısında duran aktual problemlərin həlli ənənəvi metodlardan daha çox fənlərarası istiqamətlərin metodoloji bazasından yararlanmağı tələb edir. Bu isə bir daha sübut edir ki, ictimai və humanitar elmlərin gələcək inkişafı onların müəyyən dərəcədə dəqiq, təbiət elmlərinə məxsus anlayış və metodlarla zənginləşməsindən asılıdır. Vurğulanan amillər Azərbaycan qəhrəmanlıq eposunun sinergetik paradiqma müstəvisindən araşdırılması zərurətini ön plana çıxarır və işin aktuallığını təmin edir.

Azərbaycan qəhrəmanlıq eposu bu günə kimi sinergetik aspektdə tədqiq edilməmişdir. Lakin Azərbaycan qəhrəmanlıq dastanlarının musiqi qatının bəzi ünsürləri uzun illərdir ki, alimlər tərəfindən araşdırılır. Milli musiqi eposşünaslığının qaynaqları orta

əsrlər Azərbaycan musiqi elmindən qidalansa da, onun yeni elmi paradiqma kontekstində inkişafı Üzeyir Hacıbəylinin adı ilə bağlıdır. Ü.Hacıbəylinin elmi axtarışlarının nəticəsində ilk dəfə olaraq Azərbaycan şifahi ənənəli musiqi janrları sistemində aşıq sənətinin yeri təyin edilmiş, onun müəyyən musiqi-üslub xüsusiyyətləri, o cümlədən də epik tərzi qeyd olunmuş və ən başlıcası isə, aşıqşünaslığın perspektiv istiqamətləri müəyyənləşdirilmişdir [1]. Azərbaycanda musiqi eposşünaslığının inkişafında böyük xidmətləri olmuş alimlərdən biri Əminə Eldarova olmuşdur. İlk dəfə olaraq Azərbaycan aşıq musiqisini sistemli, davamlı şəkildə araşdıran və vahid bədii sistem kimi təqdim edən Ə.Eldarova öz tədqiqatlarında digər məsələlərlə yanaşı, qəhrəmanlıq dastanlarına məxsus epik havalardan bəhs etmişdir. Ə.Eldarovanın "Azərbaycan aşıq sənəti" monoqrafiyasında[2] və d. tədqiqat əsərlərində aşıqşünaslığın musiqi-tarixi, musiqi-nəzəri, etnoorqanoloji, metodoloji və s. problemləri öz şərhini tapmışdır. Azərbaycanda musiqi eposşünaslığının yeni mərhələsinin inkişafına təkan verən alimlərdən biri professor Tariyel Məmmədov olmuşdur. Etnomusiqişünasın "Koroğlu havaları" [3] tədqiqat əsərində "Koroğlu" eposu ilə bağlı problemlər kompleks şəklində təqdim edilmiş, "Koroğlu" dastanının yaranması və tarixi inkişafı, onun variantları, eposla genetik şəkildə bağlı olan havaların tipologiyası, Azərbaycan instrumental musiqisində Koroğlu qəhrəmanlıq havaları haqqında məlumat verilmişdir. T.Məmmədovun "Azərbaycan aşıqlarının ənənəvi havaları" [4], "Azərbaycan aşıq yaradıcılığı" [5] kitablarında digər ənənəvi havalarla yanaşı qəhrəmanlıq eposuna məxsus olan havaların da musiqi dili müxtəlif rakurslardan – məqam, melodiya, metr-ritm, polifoniya və s.

---

[1] Hacıbəyli, Ü.Ə. Bədii və publisistik əsərlər / Ü.Ə. Hacıbəyli. – Bakı: Şərq-Qərb, – 2008. – 544 s.
[2] Eldarova, Ə.M. Azərbaycan aşıq sənəti / Ə.M. Eldarova. – Bakı: Ərgünəş, – 2018. – 440 s.
[3] Məmmədov, T.A. Koroğlu aşıq havaları / T.A. Məmmədov. – Bakı: Apostrof, – 2010. – 375 s.
[4] Мамедов, Т.А. Традиционные напевы азербайджанских ашугов / Т.А. Мамедов – Баку: Ишыг, –1988. – 352 с.
[5] Məmmədov, T.A. Azərbaycan aşıq yaradıcılığı. Ali musiqi məktəbləri üçün dərslik / T.A. Məmmədov. – Bakı: Apostrof, – 2011. – 647 s.

tədqiq edilmişdir. İradə Köçərlinin "Aşıq sənəti: sinkretizm və sintez problemləri" [6], "Aşıq sənəti: musiqili-poetik janrlar" [7] və s. əsərlərində epik əsərlərin təhlilində böyük önəm daşıyan sinkretizm və sintez problemləri tədqiqata cəlb olunmuşdur. Nailə Rəhimbəylinin "Azərbaycan dastanlarının melo-poetikası ("Aşıq Qərib" dastanı əsasında)" [8] adlı monoqrafiyasında "Aşıq Qərib" dastanında ifa olunan bəzi qəhrəmanlıq havalarının musiqi dili xüsusiyyətləri tədqiq edilir. İlqar İmamverdiyev [9], Azad Kərimov (Azad Ozan Kərimli) [10], Hafiz Kərimov[11], Həbibə Məmmədova [12], Nida Tüfekçi [13], Süleyman Şenel [14] və d. alimlərin tədqiqat əsərlərində bir sıra digər məsələlərlə yanaşı, qəhrəmanlıq eposunn musiqi qatına dair müəyyən dəyərli fikirlər söylənilmişdir.

Müasir Azərbaycan aşıqşünaslığının strateji əhəmiyyətə malik olan istiqamətlərindən birini "Kitabi-Dədə Qorqud" eposunun musiqi poetikası problemlərini tədqiq edən musiqi qorqudşünaslığı təşkil edir. Z.Səfərova, F.Xalıqzadə, A.Nəcəfzadə, G.Mirzaoğlu və d. mütəxəssislərin elmi əsərlərində "Kitabi-Dədə Qorqud" eposunda musiqi mədəniyyəti ilə bağlı məsələlər işıqlandırılmışdır. "Aşıq musiqisi və bəstəkar yaradıcılığı" problemi də musiqişünasların diqqətindən kənarda qalmamışdır. Ü.Hacıbəylinin "Koroğlu"

---

[6] Köçərli, İ.T. Aşıq sənəti: sinktretizm və sintez problemləri / İ.T. Köçərli. – Bakı: Səda, – 2010. – 210 s.

[7] Köçərli, İ.T. Aşıq sənəti: musiqili-poetik janrlar / İ.T. Köçərli. – Bakı: Avqust, – 2010. – 218 s.

[8] Rəhimbəyli, N.R. Azərbaycan dastanlarının melo-poetikası ("Aşıq Qərib" dastanı əsasında / N.R. Rəhimbəyli. – Bakı: Şərq-Qərb, – 2009. – 536 s.

[9] İmamverdiyev, İ.C. Azərbaycan aşıq ifaçılıq sənətinin səciyyəvi xüsusiyyətləri (Qərb bölgəsi üzrə) / İ.C. İmamverdiyev. – Bakı: Şirvannəşr, – 2004. – 138 s.

[10] Керимов, А.К. Таузская школа ашыгов Азербайджана: / Автореферат дис. кандидата искусствоведения. / – Баку, 1995. – 22 с.

[11] Kərimov, H.V. Borçalı aşıqlarının musiqi yaradıcılığı / H.V. Kərimov. – Bakı: ADMİU, – 2019. – 280 s.

[12] Məmmədova, H.V. Tarixi-qəhrəmanlıq mövzulu aşıq havalarının musiqi dilinin təhlili (metodik vəsait) / H.V. Məmmədova. – Bakı: ADPİU, – 2014. – 54 s.

[13] Tüfekçi, N. Aşiklarda Müzik Problemler // Türk halk müziginde çeşitli görüşler / Derleyen Salih Turhan. – Ankara: Kültür Bakanlığı, – 2000, – s. 227-243.

[14] Şenel, S. Türk Halk Musikisinde "Uzun Hava" Tanımları və Bu Tanımlar Etrafında Ortaya Çıkan Problemler // Türk halk müziginde çeşitli görüşler / Derleyen Salih Turhan. – Ankara: Kültür Bakanlığı, –2000, – s. 55-81.

operasının göstərilən kontekstdə araşdırılmasında Elmira Abasova[15], İzabella Abezqauz[16], Semyon Korev [17], Zemfira Qafarova[18] və d. alimlərin böyük rolu olmuşdur.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini Azərbaycan qəhrəmanlıq eposunun musiqi-sinergetik prosesləri təşkil edir. Bu kontekstdən çıxış edərək tədqiqatın predmetini eposun musiqi qatı üçün səciyyəvi olan özününizam prinsipinin təzahür formaları kimi müəyyən etmək olar. Diaxronik kontekstdə eposun funksionallığını təmin edən özününizam prinsipi müxtəlif tarixi dövrlərə aid olan epik mətnlərdə aşağıdakı formalarda təzahür etmişdir:

- musiqi-epik mətnlərinin inkişafında fluktuasiyaların rolunda;
- epik havaların qeyri-xətti inkişaf prosesində fazalararası keçid və bifurkasiya məqamlarında;
- epik havaların quruluşunda özünəbənzərlik (fraktallıq) prinsiplərinin inikasında;
- epik sənət nümunələrinin ətraf mühitlə, mövcud tarixi-ictimai şəraitlə qarşılıqlı əlaqələrində;
- epik diskursda müəyyən konseptərin biçimlənməsi və gəlişməsində;
- konseptlərin semantik xüsusiyyətlərindən irəli gələn müəyyən freymlərin formalaşmasında.

**Tədqiqatın məqsəd və vəzifələri.** Azərbaycan qəhrəmanlıq eposunun musiqi qatının özününizam prinsiplərinin sinergetik paradiqması kontekstində tədqiq edilməsi, onların diaxronik baxış bucağından rolu və əhəmiyyətinin müəyyənləşdirilməsi hazırkı dissertasiya işinin əsas məqsədini təşkil edir. Qarşıya qoyulan məqsədə nail olunması istiqamətində aşağıdakı vəzifələr müəyyən edilmişdir:

---

[15] Абасова, Э.А. Опера «Кероглу» Узеира Гаджибекова / Э.А. Абасова. – Баку: Азернешр, – 1966. – 57 с.

[16] Абезгауз, И.В. Опера «Кероглы» Узеира Гаджибекова. О художественных открытиях композитора / И.В. Абезгауз. – Москва: Советский композитор, 1987. – 232 с.

[17] Корев, С.И. Узеир Гаджибеков и его оперы / С.И. Корев. – Москва: Музгиз, 1952. – 93 с.

[18] Кафарова, З.Г. «Кероглу» Узеира Гаджибекова / З.Г. Кафарова. – Баку: Язычы, – 1981. – 166 с.

- Azərbaycan qəhrəmanlıq eposunu musiqi qatının özününizam prinsipi əsasında inkişaf edən bədii sistem kimi tədqiq etmək;

- eposun qeyri-xətti inkişaf dinamikasının özəlliklərini aşkarlamaq üçün çağdaş elmi paradiqmada böyük önəm daşıyan sinergetikanın bəzi metodoloji prinsiplərini etnomusiqişünaslıq sahəsində tətbiq etmək;

- tədqiqatın əsas obyektini ətraf mühitlə, tarixi-ictimai kontekstlə daim enerji mübadiləsi vəziyyətində mövcud olan açıq sistem kimi araşdırmaq;

- Azərbaycan qəhrəmanlıq eposunun musiqi qatının qeyri-xətti inkişaf dinamikasında bifurkasiya məqamlarını və fazalararası keçidləri müəyyən etmək;

- təhlilə cəlb etdiyimiz epik havaların quruluşunda fraktallıq, yaxud miqyaslı invariantlıq prinsipinin rolunu müəyyən etmək;

- qəhrəmanlıq eposunun bütün inkişafı boyu attraktorlar funksiyasını yerinə yetirən müəyyən konseptlərin və onların musiqi qatının səciyyəvi xüsusiyyətlərini aşkarlamaq;

- müasir elmi paradiqmadan təkan alaraq Azərbaycan qəhrəmanlıq eposunun inkişafını arasıkəsilməyən bir proses, etnik-mədəni bütöv kimi səciyyələndirmək;

- Azərbaycan qəhrəmanlıq eposunun konseptsferasını müəyyənləşdirərək, onun Ü.Hacıbəylinin "Koroğlu" operasında təzahürünü araşdırmaq.

**Tədqiqat metodları.** Azərbaycan qəhrəmanlıq eposunun özününizam proseslərinin araşdırılması müxtəlif elmi metodların kompleksli şəkildə tətbiqini tələb edir. Müasir elmi paradiqmanın önəmli tərkib hissəsini təşkil edən bəzi fənlərarası istiqamətlərin metodları dissertasiyanın metodoloji bazasının özülü hesab oluna bilər. Azərbaycan qəhrəmanlıq eposunun inkişaf qanunauyğunluqlarının araşdırılmasında müxtəlif elmi sahələrin uzlaşmasından meydana gələn sinergetika əsas metodoloji mənbə kimi çıxış etmişdir. Mövzunun işlənilməsində sinergetik paradiqmanın formalaşmasında böyük rolu olan alimlərin nəzəri fikir və müddəalarına istinad edilmişdir. Belə ki, Herman Haken *(Hermann Haken)*[19], İlya Priqojin

---

[19] Хакен, Г.К. Синергетика / Г.К. Хакен. – Москва: Мир, – 1980, 404 с.

*(İlya Prigogine)*[20], Sergey Kurdyumov (*Сергей Курдюмов*)[21] və d. tədqiqat əsərlərində irəli sürülən qeyri-xəttilik, fraktal, bifurkasiya və s. anlayışlar tədqiqat işimizin elmi-nəzəri və metodoloji bazasında xüsusi önəmə malikdir.

Tədqiqatın metodoloji özülündə sinergetik paradiqmanın əsas prinsipləri ilə yanaşı, koqnitiv təhlil metodları da önəmli rola malikdir. Lüdviq Vitqinşteyn (*Ludwig Jozef Johann Wittgenstein)*[22], Anna Vejbitska (*Anna Wierzbicka)*[23], Yuri Stepanov (*Юрий Степанов*)[24] və d. alimlərin konsept nəzəriyyəsinə dair fikirləri hazırkı tədqiqat işinin metodoloji bazasında xüsusi əhəmiyyət daşıyır. Elmi ədəbiyyatda müxtəlif yozumlara malik olan freym anlayışı hazırkı tədqiqat işində Leonard Talmi (*Leonard Talmy*)[25], Natalya Strenyova (*Наталья Стренева*)[26] və d. alimlərin araşdırmalarına əsasən biliklərin struktur baxımından təzahürü kimi təfsir edilir.

Tədqiqat prosesində etnomusiqişünaslıqda qəbul olumuş təhlil metodlarından istifadə edilmişdir. Mövzunun işlənilməsində etnomusiqişünaslığın inkişafında önəmli rol oynayan alimlərin nəzəri müddəalarına, xüsusilə, Alan Meriam (*Alan P. Merriam*)[27], Con Blekinq (*John Blacking*)[28], Rays Timoti (*Rice Timothy*)[29], Stiven

---

[20] Пригожин, И.Р. Конец определенности. Время, хаос и новые законы природы / И.Р. Пригожин. Ижевск: НИЦ «Регулярная и хаотическая динамика», – 2000. – 208 с.

[21] Князева, Е. Н. Основания синергетики. Синергетическое мировидение / Е. Н. Князева, С. П. Курдюмов. – Москва: КомКнига, –2005.– 240 с.

[22] Wittgenstein, L.J.İ. Philosophical investigations / L.J.İ. Wittgenstein. UK: Wiley– Blackwell, – 2009. – 592 p.

[23] Вежбицкая, А.Т. Семантические универсалии и описание языков / Вежбицкая А.Т. – Москва: Языки русской культуры, – 1999. – 790 с.

[24] Степанов, Ю.С. Константы: Словарь русской культуры / Ю.С. Степанов – Москва: Академический проект, –2004. – 991 с.

[25] Talmy L. Rubber-sheet cognition in language // Papers from the regional meeting of the Chicago linguistic society Chicago, – 1977, v. 13, p. 612-628.

[26] Стренева, Н.В. Понятийный потенциал термина «фрейм» // Вестник ОГУ, 2009, № 11 (105), с. 60-65.

[27] Merriam, A. The anthropology of music / A. Merriam. N.Y. Evanston: Nortwestern University press, – 1964. – 358 p.

[28] Blacking, J. Ethnomusicology / J. Blacking. – New-York, 1992. – 400 p.

[29] Rice, Timothy. Ethnomusicology: a very short introduction. / T.Rice – Great Britain: Ashford Colour Press Ltd, – 2013. – 168 p.

Blum (*Stephen Blum*)[30], Vladimir Qoşovski (*Владимир Гошовский)*[31], İzaliy Zemtsovski (*Изалий Земцовский*)[32] və d. əsərlərinin elmi prinsiplərinə istinad edilmişdir. Dissertasiyada qarşıda qoyulan vəzifələrin yerinə yetirilməsi məqsədilə sistemli, struktur-funksional, tarixi-müqayisəli, tarixi-genetik, modelləşdirmə kimi ümumelmi metodlara müraciət olunur. Dissertasiya müəllifi hermenevtik araşdırma üsullarından yararlanır, lazım gəldikdə isə semioloji tədqiqat metodlarına üz tutur. Dissertasiyada Ü.Hacıbəyli, Ə.Eldarova, T.Məmmədov, İ.Abezqauz, F.Əliyeva, F.Xalıqzadə və başqalarının Azərbaycan musiqisinin nəzəri əsaslarına və onunla bağlı tarixi proseslərə həsr edilmiş tədqiqatların elmi müddəalarından bir mənbə kimi istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar**:

–Sinergetik paradiqmanın konseptual metodlarının tətbiqi Azərbaycan qəhrəmanlıq eposunun müxtəlif mərhələləri arasında qırılmaz telləri aşkar edərək onu özününizam və qeyri-xəttilik prinsipləri əsasında fəaliyyət göstərən vahid proses, bədii fenomen kimi dəyərləndirməyə imkan vermişdir;

–Ritual-mifoloji sistemlə sıx bağlı olan erkən epik yaradıcılığında dissipativ proseslər nəticəsində ayrı-ayrı sabit formul və quruluşlar biçimlənmişdir;

–"Kitabi-Dədə Qorqud" dastanına koqnitiv yanaşma tərzi onun boylarının mənayaratma prosesində "savaş", "öygü", "qutsallıq" kimi konseptləri üzə çıxarmağa imkan vermişdir. Freym semantikasının nəzəri prinsiplərinə əsaslanaraq belə bir müddəa irəli sürülmüşdür ki, tədricən hər konseptə uyğun olan ifadə vasitələri sistemi formalaşmışdır;

–"Kitabi-Dədə Qorqud" dastanında yer almış musiqi janrları, boy mətnlərinin prosodik və artikulyasiya xüsusiyyətləri orta əsr türk musiqi mədəniyyətinin zənginliyindən xəbər verir;

---

[30] Blam, S. "Şah Xətai" ad və janr kimi // "Muğam aləmi" Beynəlxalq elmi simpoziumun materialları. – Bakı, – 2009, – s. 79-83.
[31] Гошовский В.Л. Фольклор и кибернетика // – Москва: Советская музыка, – 1964, № 12, – с. 83-89.
[32] Земцовский, И.И. Антропология музыкального существования / И.И. Земцовский. – СПб: Композитор, – 2023. – 528 с.

– “Kitabi-Dədə Qorqud” dastanının topikası və konsept dairəsi ilə bağlı olan məsələlərin araşdırılması onun musiqi dilinin bərpası üçün də zəmin yarada bilər;

– Azərbaycan konseptsferasının önəmli seqmentini təşkil edən “Koroğlu” hiperkonsepti və onun təzahürü olan epik havaların bədii kodu türk xalqlarının mifopoetik sistemi kontekstində dərk edilə bilər. Müxtəlif milli variantların müqayisəli təhlili əsasında bərpa olunmuş ümumtipoloji modeli “Koroğlu” epik havalarının genotipi hesab etmək olar;

– “Koroğlu” havalar silsiləsinin sinergetik prizmadan araşdırılması onun tarixi inkişaf dinamikasında, bütün mürəkkəb sistemlərdə olduğu kimi, iki amilin arasıkəsilməyən mübadiləsini üzə çıxarmışdır. Birinci amil qeyri-xətti sistemlərdə özününizam mexanizminin təmin olunması, onun müxtəlif səviyyələrinin əlaqələndirilməsi və yeni özünəbənzər obyektlərin yaranması ilə bağlıdır. Qeyri-xətti sistemlərdə mühüm rol oynayan ikinci amil isə dissipasiya prosesləri ilə əlaqəlidir. “Koroğlu” eposunun qeyri-xətti inkişaf mühitində yeni havaların yaranması məhz bu fundamental amillərin qarşılıqlı təsiri nəticəsində meydana gəlmişdir;

– XVI əsr Azərbaycan tarixinin ziddiyətli ictimai-sosial və mədəni-mənəvi mühitində formalaşan “Şah Xətayi” hiperkonsepti milli konseptsferanın əsas tərkib hissələrindən biridir. “Şah İsmayıl” dastanı ilə genetik şəkildə bağlı olan aşıq havaları silsiləsinin araşdırılması orta çağ aşıq yaradıcılığı haqqında müəyyən mülahizələr irəli sürmək üçün imkan yaradır;

– “Şah Xətayi” silsiləsinə daxil olan aşıq havalarının musiqi dili üçün qeyri-xətti proseslərin təzahürü, məqam-intonasiya və metr-ritm səviyyələrində fluktuasiyaların formayaradıcı rolu xasdır. Eyni zamanda həmin silsiləyə daxil olan aşıq havalarının bədii sistemində fraktallıq prinsipi müəyyən təşkiledici funksiyalar yerinə yetirir;

– XX əsrin birinci yarısında Azərbaycan qəhrəmanlıq eposunun özününizam prinsipləri Üzeyir Hacıbəylinin yaradıcılığında da təzahür etmişdir. Bəstəkarın əsərlərində epik mətamətnin qanunauyğunluqlarının əks olunması prosesini koqnitiv proses kimi təfsir etmək olar. Ü.Hacıbəylinin “Koroğlu” operasının

kompozisiya və struktur-semantik səviyyələrində epik təfəkkürün ən müxtəlif xüsusiyyətləri öz orijinal təfsirini tapmışdır;

–Dünya musiqisi tarixi kontekstində "Koroğlu" operasını koevolyusiyanın, yəni özünəməxsus inkişaf templərinə malik olan mürəkkəb strukturların bir bədii sistem daxilində uzlaşmasının unikal nümunəsi hesab etmək olar.

**Tədqiqatın elmi yeniliyi** ondan ibarətdir ki, burada ilk dəfə olaraq Azərbaycan qəhrəmanlıq eposunun musiqi qatı sinergetik paradiqması kontekstində tədqiq edilmiş, onun özününizam prinsipləri diaxronik baxış bucağından nəzərdən keçirilmiş və sonucda bu bədii fenomen arasıkəsilməyən proses, etnosinerjinin təzahürü kimi səciyyələndirilmişdir. İşin elmi yeniliyini şərtləndirən əsas müddəaları aşağıdakı kimi ümumiləşdirmək olar:

- dissertasiyada ilk dəfə olaraq qeyri-xəttiliyin təzahür formaları kompleks halında tədqiq edilərək, onların Azərbaycan qəhrəmanlıq eposunun inkişaf yolunun müəyyən bifurkasiya məqamlarında rolu qeyd olunmuş və yeni tarixi mərhələnin yaranmasında təkanverici funksiyası araşdırılmışdır;
- Azərbaycan qəhrəmanlıq eposunuun ayrı-ayrı nümunələrinin musiqi qatı təcrid olunmuş halda deyil, vahid bədii fenomen kimi səciyyələndirilmiş, onun inkişaf tarixində sinergetik baxımdan bir neçə daha böyük əhəmiyyətə malik olan faza məkanlarının mövcudluğu qeyd olunmuşdur. Aparılan təhlilin sonucunda belə nəticə hasil olur ki, hər bir yeni yaranan faza məkanında inkişaf əskidən bəri biçimlənmiş attraktorlara – məzmun etibarilə yeni semantik çalarlarla zənginləşmiş konseptlərə doğru yönəlirdi;
- qəhrəmanlıq eposunun əsas inkişaf mərhələləri ilə Azərbaycan tarixinin taleyüklü dönəmləri arasında qırılmaz bir sinerji mövcuddur. Tədqiqat obyektimizin immanent xüsusiyyətləri və humanitar elmlərdə qəbul olunmuş dövrləşmə prinsiplərinə istinadən ilk dəfə olaraq Azərbaycan qəhrəmanlıq eposunun musiqi sisteminin inkişaf prosesinin dövrləşdirilməsi təklif olunmuşdur;
- qəhrəmanlıq eposunun təşəkkül dövrünün araşdırılmasının sinergetik aspektləri türk xalqlarının erkən yaradıcılığını idrak prosesinin təzahürü kimi təsvir etməyə imkan yaradır. Dissertasiya müəllifinin gəldiyi qənaətə görə, sinkretik mərasimlərin qeyri-xətti

sistemində müəyyən oturuşmuş qəliblər və koqnitiv modellər meydana gəlmişdir. Əski türk mifoloji-ritual naturfəlsəfəsi, antropogenez və kosmogenez görüşləri erkən epik yaradıcılığın bütün komponentlərinə, o cümlədən musiqi ünsürünə də təsir göstərmişdir;

- Dissertasiyada ilk dəfə olaraq "Kitabi-Dədə Qorqud" dastanının boyları koqnitivizm metodoloji prinsiplərinə əsasən tədqiq edilmiş, onun konsept dairəsi ilə bağlı olan mülahizələr irəli sürülmüşdür. Göstərilən metodoloji müddəalara əsasən dissertasiyada etnomusiqişünaslıq elmində ilk dəfə olaraq "Kitabi-Dədə Qorqud" dastanının soylamalarından birinin musiqi dilinin törədici modelinin bərpasına cəhd göstərilmişdir;
- təqdim olunmuş elmi işdə ilk dəfə olaraq "Koroğlu" eposu ilə genetik şəkildə bağlı olan epik havalar özününizam sistemi kimi təqdim olunmuş, onların semantik sintaksisi problemləri araşdırılmışdır. Aparılmış araşdırma nəticəsində "Koroğlu" epik havaları silsiləsinin tarixi inkişaf dinamikasında mürəkkəb sistemlərə xas olan iki amilin (özünəbənzər obyektlərin yaranması və dissipasiya prosesləri) rolu müəyyənləşdirilib. Belə nəticə hasil olunmuşdur ki, eposun qeyri-xətti inkişafında quruluş-attraktorlar sistemi məhz bu önəmli amillərin nəticəsində meydana gəlmişdir;
- dissertasiya müəllifi tərəfindən yazıya alınmış "Koroğlunun Ərzincan səfəri" qolunun struktur-tipoloji təhlili həm qəhrəmanlıq eposunun bəzi diskursiv qanunauyğunluqlarının, həm də epik havaların semantik məzmununun dərk edilməsi üçün zəmin yaratmışdır. "Koroğlu havaları" silsiləsinin vahid bədii sistem kimi nəzərdən keçirilməsi zamanı belə qənaətə gəlinmişdir ki, burada əski türk qəhrəmanlıq eposunun əsasən iki aparıcı konsepti təfsir edilmişdir: "savaş" və "öygü". Dastanın konsept dairəsinin zənginliyi ənənəvi Azərbaycan musiqi mədəniyyəti müstəvisində "Koroğlu" hiperkonseptinin yaranmasına təkan vermişdir;
- ilk dəfə olaraq milli konseptsferanın önəmli tərkib hissəsi olan "Şah Xətayi" hiperkonsepti müəyyən olunmuş, aşıq yaradıcılığında onun təzahür formaları araşdırılmışdır. "Şah Xətayi" aşıq havaları silsiləsinin sinergetik prizmadan araşdırılması epik havaların məqam-intonasiya və metr-ritm səviyyələrində qeyri-xətti proseslərin təzahür formalarının təşkiledici rolunu müəyyənləşdirmişdir;

- hazırkı dissertasiyada ilk dəfə olaraq Ü.Hacıbəylinin “Koroğlu” operası Azərbaycan qəhrəmanlıq eposunun qeyri-xətti inkişaf yolunun müəyyən fazası, özününizam sisteminin təzahürü kimi təfsir edilmişdir. Bəstəkarın yaradıcılığına koqnitivizm baxış bucağından yanaşma “Koroğlu” operasını mətnlərarası dialoqun zirvəsi kimi təfsir etməyə imkan yaratmışdır;

- aparılmış təhlil nəticəsində operada qəhrəmanlıq eposunun səciyyəvi konsept və freymlərinin təzahür formaları aşkarlanmışdr. Əsərdə təfsir edilən semantik vahidlər arasında Azərbaycan qəhrəmanlıq eposunun konseptsferasının önəmli ünsürləri olan “öygü” və “savaş” konseptlərinin önəmli rolu müəyyənləşdirilmişdir. Əldə olunan qənaətə görə, operanın semantik sintaksisində türk xalqlarının epik musiqi yaradıcılığının bəzi universal qanunauyğunluqları öz təzahürünü tapmışdır. Opera librettosunun “Koroğlu” dastanı ilə müqayisəli təhlili nəticəsində Ü.Hacıbəylinin əsərinin quruluşunda invariant funksiyaların müəyyən sintaqmatik ardıcıllığı üzə çıxarılmış, dastan diskursuna xas olan bəzi morfoloji qanunauyğunluqlar aşkar olunmuşdur;

- Ü.Hacıbəylinin “Koroğlu” operası çağdaş elmi paradiqma kontekstində araşdırılaraq, musiqi tarixində koevolyusiyanın nadir nümunəsi kimi təqdim edilmişdir. Aparılmış təhlilin sonucunda belə bir nəticəyə gəlinmişdir ki, əsərin semantik müstəvisində qəhrəmanlıq eposunun tarixən formalaşmış koqnitiv modelləri Avropa bəstəkarlıq yaradıcılığının konsept və freymləri ilə kontaminasiya halında çıxış etmişdir. Bu baxımdan epik sənətin müəyyən freymlərinin aktuallaşdırılaraq, onların Avropa bəstəkarlıq texnikası ilə uzlaşdırılması Ü.Hacıbəylinin tətbiq etdiyi tarixi yeniliklər siyahısına daxil edilə bilər.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti** ondan ibarətdir ki, dissertasiya işində ifadə edilmiş nəticə və müddəalar türk xalqlarının epik mədəniyyəti ilə bağlı olan gələcək araşdırmalarda fundamental metodoloji baza kimi istifadə oluna bilər. Aparılan araşdırmanın materialları ənənəvi musiqi yaradıcılığının ayrı-ayrı janrlarının müasir nəzəri-metodoloji əsaslarla tədqiqi işində də faydalı ola bilər. Çağdaş dövrün humanitar və sosial elmlərinin metodoloji bazasında fənlərarası istiqamətlərin önəmini nəzərə alaraq söyləmək olar ki,

dissertasiyada tətbiq edilmiş metodların bir prinsip kimi digər müvafiq sahələrdə də istifadəsi istisna edilmir. Geniş tarixi-mədəni kontekstdə aparılmış araşdırmanın material və nəticələrinə Azərbaycan konseptsferası və incəsənət tarixinə dair yazılacaq fundamental tədqiqat əsərlərində də müraciət edilməsi mümkündür. Dissertasiyanın praktiki əhəmiyyəti ondan ibarətdir ki, onun müəyyən nəticə və müddəaları "Etnomusiqişünaslıq", "Aşıq yaradıcılığının tarixi və nəzəriyyəsi", "Azərbaycan xalq musiqi yaradıcılığı", "Azərbaycan xalq musiqisinin əsasları", "Musiqişünaslığın metodologiyası", "Türk xalqlarının musiqisi", "Azərbaycan musiqi tarixi" və s. fənlərin tədrisində istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiyanın mövzusu ilə bağlı müəllifin "EPOS: Epos Paradiqmaların Olağanüstü Sinerjisi", "Восхождение (Узеир Гаджибейли и ашыгское искусство: интертекстуальный диалог)" adlı monoqrafiyaları, "Aşıqşünaslığın tarixi və nəzəriyyəsi" dərsliyi, "Azərbaycan musiqi tarixi"nin I cildində "Azərbaycan aşıq sənəti" mövzusunda oçerki, "Ozan-aşıq ensiklopediyası"nda bir sıra məqalələri çap olunmuşdur. Dissertasiyanın materialları, əsas bölmələri və elmi nəticələri "Музыкальная Академия", "Проблемы музыкальной науки", "Музыка и время", "Поиск", "Bulletin of Kyiv National University of Culture and Arts", "Musiqi dünyası", "Mədəniyyət dünyası", "Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Elmi əsərləri", "Harmony" və s. beynəlxalq xülasələndirmə və indeksləşmə sistemlərinə (bazalarına) daxil olan dövri elmi nəşrlərdə çap edilmiş, yerli və xarici elmi toplularda işıq üzü görmüş, eləcə də İnternational Society for music education (İSME) XXX və XXXI Beynəlxalq elmi konfranslarında, habelə European League of İnstitutes of the Arts Teachers Academy (ELİA), İnternational Council for Traditional Music (İCTM), İnternational Conference on European Science and Technology, "Истоки и эволюция литератур и музыки тюркских народов" Beynəlxalq konfranslarında, "Современное музыкальное образование" XIX Beynəlxalq elmi-praktiki konfransında, "Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri" adlı XII, XIII, XV, XVII və XX Beynəlxalq elmi-praktiki, "Ortaq türk keçmişindən ortaq türk gələcəyinə qədər"

V Uluslararası folklor konfranslarında, "Türkdilli xalqların musiqi alətləri" Beynəlxalq simpoziumunda, "Qloballaşan dünyada musiqi ənənələri" mövzusunda I Beynəlxalq elmi-praktiki konfransda, "Muğam aləmi" IV Beynəlxalq elmi simpoziumunda edilən çıxışlarda, bir sıra digər yerli və xarici elmi toplantılarda təqdim olunmuş məruzələrdə öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasya Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Azərbaycan ənənəvi musiqisi və müasir texnologiyalar" kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş, dörd fəsil, səkkiz paraqraf, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısı və əlavələrdən ibarətdir. Dissertasiyanın struktur bölmələrinin həcminə gəlincə, giriş 20 səhifə 37 111 işarədən, I fəsil 59 səhifə 110 720 işarədən, II fəsil 54 səhifə 85 201 işarədən, III fəsil 49 səhifə 83 887 işarədən, IV fəsil 55 səhifə 104 308 işarədən, "Nəticə" isə 17 səhifə 30 553 işarədən ibarətdir. Tədqiqat işinin ümumi həcmi isə "İstifadə edilmiş ədəbiyyat siyahısı" və "Əlavələr" istisna olunmaqla 454 417 işarədən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsi əsaslandırılır, onun elmi yeniliyi açıqlanır, tədqiqatın məqsəd və vəzifələri, nəzəri-metodoloji əsasları, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın nəzəri və praktiki əhəmiyyəti haqqında məlumat verilir.

Dissertasiyanın **"Qəhrəmanlıq eposunun erkən inkişaf mərhələləri fənlərarası istiqamətlərin obyekti kimi"** adlanan birinci fəsli iki paraqrafdan ibarətdir. **"Müasir elmi paradiqma kontekstində epik təfəkkürün araşdırılmasının nəzəri-metodoloji əsasları"** adlı birinci paraqrafda çağdaş elmi paradiqmanın bəzi fənlərarası istiqamətlərinin metodoloji prinsiplərindən bəhs edilir. Qeyd olunur ki, erkən epik təfəkkürün özününizam prinsiplərinin

kodunun açılması, ilk növbədə, sinergetikanın metodoloji prinsiplərinin tətbiqi nəticəsində gerçəkləşə bilər.

Özününizam (*self-orqanization*) prinsipi əsasında inkişaf edən mürəkkəb sistemləri öyrənən sinergetikanın metodoloji prinsipləri son dövrdə sosial elmlər sahəsində də tətbiq edilməkdədir. Sinergetikanın əsas tədqiqat obyektləri – mürəkkəb strukturlar ətraf mühitlə daim enerji mübadiləsi vəziyyətində mövcud olan açıq sistemlərdir. Sinergetik paradiqmanın fundamental prinsiplərindən biri qeyri-xəttilik anlayışı ilə bağlıdır. Bu elmi sahənin təşəkkülündə mühüm rol oynayan alimlərdən biri İlya Priqojinin fikrincə, "*qeyri-sabit vəziyyətdən kənarda ümumiyyətlə inkişaf yoxdur*"[33]. Elmi ədəbiyyatda bu xüsusda söylənilən fikirləri ümumiləşdirərək, qeyri-xəttilik ideyasının mahiyyətini aşağıdakı prinsiplərlə ifadə etmək mümkündür: a) təkamül prosesinin inkişaf yollarının müxtəlifliyi (çoxvariantlığı); b) müəyyən alternativ istiqamətlər sırasından seçimin aparılması; c) təkamülün labüdlüyü; d) təkamül sürətinin ətraf mühitdən asılılığı"[34]. Bütün bu prinsiplərin fövqündə duran əsas ideyanın mahiyyəti ondan ibarətdir ki, hər hansı bir quruluşda qeyri-sabitlik və natarazlıq halları, xaosu nizama çevirən əsas təkanverici qüvvə kimi çıxış edir.

Determinizm əsasında qurulan keçmiş elmi paradiqmaların formal təhlil metodları ilə izah olunmayan qeyri-sabitlik anlayışı İ.Priqojin, H.Haken və d. alimlərin səyləri nəticəsində müasir elmi düşüncənin əsasını təşkil etməkdədir.

Sinergetikanın ana xəttini təşkil edən qeyri-xəttilik paradiqması bu elmi istiqamət üçün önəmli olan fluktuasiya, bifurkasiya və fazalararası keçid anlayışları ilə çox sıx şəkildə bağlıdır. Bu anlayışlar bilavasitə təbiətdə, elmdə, incəsənətdə və digər sahələrdə müşahidə olunan qeyri-sabitliyin təzahürü ilə əlaqədardır. Apardığımız araşdırmanın metodoloji bazasında xüsusi önəm daşıyan məqamlardan biri də ondan ibarətdir ki, qeyri-xətti prinsipə əsaslanan açıq fəzada proseslərin müxtəlif inkişaf variantları mövcuddur. Sinergetik

---

[33] Prigogine I.R. The Philosophy of Instability // Futures, Vol.21. № 4, August, 1989, p. 396-400.

[34] Князева, Е.Н. Основания синергетики. Синергетическое мировидение / Е.Н.Князева, С.П.Курдюмов – Москва: КомКнига, 2005. – с. 45.

paradiqmanın əsas tərkib hissələrindən biri də fraktallıq anlayışı ilə bağlıdır. Özünəbənzərlik, yaxud miqyaslı invariantlıq prinsipi əsasında qurulan obyektlərə fraktal obyektlər deyilir. Fraktalın özünəməxsusluğu ondan ibarətdir ki, onun ən kiçik tərkib hissəsi müxtəlif səviyyələrin seqmentləri, hətta bütün kompozisiyanın quruluşu ilə bənzərlik təşkil edir.

Müəllifin fikrincə, qəhrəmanlıq eposunun musiqi dilinin diaxronik baxımdan araşdırılmasında sinergetika ilə yanaşı, koqnitivizm paradiqmasının da bəzi metodoloji prinsiplərinin tətbiqi səmərəli ola bilər. Erkən epik yaradıcılığın öyrənilməsi sahəsində koqnitivizm nəzəriyyəsinin əsasını təşkil edən konsept, topos və freym anlayışlarının tətbiqi bir çox qnoseoloji problemlərin həllinə kömək etmək iqtidarındadır.

Türksoylu xalqların qədim ayinlərində, mifoloji-ritual fəlsəfəsində və ilk epik abidələrində ("Yaradılış", "Şu", "Oğuz kağan", "Köç" və s.) qeyri-xəttilik təfəkkür tərzinin nişanələri açıq-aydın görünməkdədir. Dissertasiyanın bu bölməsində erkən çağların türk epik təfəkküründə özününizam mexanizminin və qeyri-xəttiliyin bəzi təzahür formalarının işıqlandırılmasına cəhd göstərilmişdir. Türk qəhrəmanlıq eposunun musiqi dilinin araşdırılması üçün bu, son dərəcə önəmli bir məsələdir, çünki sinkretizmin bariz nümunəsi olan epik abidələrin özününizam mexanizminin ümumi şifrəsini açmadan, onların musiqi qatını tədqiq etmək qeyri-mümkündür.

Qədim türklərin inanc sistemi olan Tenqriçilikdə sinergetikanın bir çox müddəaları ilə səsləşən məqamlar sezilməkdədir. Bu, xüsusilə əski türklərin zaman və məkan kateqoriyaları haqqında naturfəlsəfi görüşlərini əks etdirən sistemdə öz əksini tapmışdır. Üfüqi nöqteyi-nəzərdən heç bir məhdudiyyətə məruz qalmayan zaman və məkan anlayışları türk arxetipik təfəkkürünün şaquli quruluşunun əsasını təşkil edirdi. Artıq xüsusi elmi ədəbiyyatda dəfələrlə qeyd olunduğu kimi, şamanizmin fundamental konsepsiyasını təşkil etmiş tenqriçilikdə dünyanın modeli üç qatdan ibarət olan şaquli sxemlə təqdim edilirdi[35]. Makroskopik səviyyədə

[35] Журакузиев, Н.И. Модель мироустройства в литературе и фольклоре древних тюркских народов // Вестник Евразийского национального университета им. Л.Н. Гумилева. Серия Филология, 2021, № 1 (134). – с. 30.

mehvər (ağac, dağ, qüllə) obrazında təqdim edilən bu kosmoloji konsepsiyanın əsasında hər üç qat arasında rabitə yaratmaq ideyası dururdu. Bu baxımdan kosmik enerjinin ötürücüsü olan şəxsin (qam-şamanın) yerinə yetirdiyi funksiyaları yaradıcı sinerjinin bariz nümunəsi hesab etmək olar.

XX əsrin 20-40-cı illərində Böyük Britaniyada Kembric məktəbinin nümayəndələri tərəfindən irəli sürülmüş "ayin nəzəriyyəsi"nin müddəalarına görə, epik janrların kökləri bilavasitə mərasimlərlə bağlıdır[36]. Türk xalqlarının bədii mədəniyyəti bu fikri təsdiqləyən çoxsaylı faktlarla zəngindir. Göstərilən bağlantının ən bariz nümunəsi "Yuğ mərasimi – erkən epik abidələr" korrelyasiyası ola bilər. Bu iki bədii hadisənin genetik əlaqəsini araşdıran M.Seyidovun gəldiyi qənaətə görə, "*Yuğ mərasimi geniş həyat hadisələrini əhatə etmiş və onun bədii baxımdan tamaşaçıya çatdırılması türk xalqlarında ilk dastan janrının yaranmasına yardım etmişdir. Deməli, yuğla dastan yaradıcılığı yol yoldaşı olmuşlar*" [37]. Bu baxımdan qeyd edə bilərik ki, Yuğ və türk xalqlarının digər mərasimlərinin mifoloji-fəlsəfi məzmunu, onların semantik yükü erkən qəhrəmanlıq dastanlarının əsas topos və konseptlərinin biçimlənməsində önəmli rol oynamışdır.

Qədim türklərin kosmoloji konsepsiyası onların maddi və mənəvi mədəniyyətinin bütün tərkib hissələrinə, o cümlədən də xalqın "səs idealını" (*Fr.Bose*) əks etdirən çalğı alətlərinə güclü təsir göstərmişdir. Bu baxımdan türksoylu xalqların çalğı alətlərinin sistem-etnofonik üsulları vasitəsilə öyrənilməsi türk etnosunun mifik-fəlsəfi görüşlər sisteminin araşdırılması üçün dəyərli mənbədir. Bu kontekstdən çıxış edərkən, qopuz alətinin düzümündə üç səviyyənin mövcudluğu təsadüfi fakt kimi qiymətləndirilməməlidir. Türk xalqlarının ənənəvi musiqisinin araşdırıcısı S.Uteqaliyevanın gəldiyi qənaətə görə, musiqi alətləri öz quruluşuna görə türk mifologiyasında önəmli rol oynayan Dağ bəlgəsi ilə ilgilidir. Belə ki,

---

[36] Ackerman, R. Cambridge ritualists (ritual anthropologists): [Electronic resource] / Oxford Dictionary of National Biography. URL: https://www.oxforddnb.com/view/10.1093/ref:odnb/9780198614128.001.0001/odnb-9780198614128-e-95519

[37] Seyidov, M.M. Azərbaycan xalqının soykökünü düşünərkən / M.M. Seyidov. – Bakı: Yazıçı, 1989. – s. 365.

alətlərin tembr-registr sistemi Dağ mifologemasının quruluşuna uyğun olaraq *"baş (Dağın zirvəsi), orta (aralıq hissəsi), ayaq (Dağın ətəyi)"*[38] kimi hissələrdən ibarətdir. Eyni zamanda, qopuz aləti həm də Tanrıçılıq modelinin üç qatı arasında rabitə yaradan Dünya ağacının rəmzi, onun "səs analoqu" olmuşdur. Bu kontekstdə qopuz alətinin yerinə yetirdiyi tarixi-semantik funksiyalar özünü daha qabarıq şəkildə büruzə verir.

Türk xalqlarının epik əsərlərinin ifasında iştirak edən qopuz alətinin pərdəsiz alətlər qrupuna mənsub olduğunu nəzərə alaraq belə bir fikir söyləmək mümkündür ki, onun məqam-intonasiya sistemi qeyri-səlis məntiq kontekstində izah oluna bilər. Belə ki, çox böyük ehtimalla fərz etmək olar ki, artıq orta türk dövründə, yəni oğuznamələrin formalaşdığı bir dövrdə epik ifaçılıqda müəyyən oturuşmuş məqam modusları da mövcud idi. Alətin morfologiyası ilə sıx əlaqədə olan intonasiya prosesi qopuzun pərdələr sisteminə də təsir göstərərək, hər bir pərdənin müəyyən intonasiya zonasını (N.Qarbuzovun istilahıdır) formalaşdırmışdır. Güman etmək olar ki, pərdələr arasında fluktuasiyalarla zəngin olan keçid fazasında intonasiya inkişafı daha intensiv şəkildə cərəyan edərək, lokallaşma prosesinə gətirib çıxarmışdır.

Erkən bədii təfəkkürün qalıqları (rudimentləri) bu gün də bəzi epik əsərlərin semantik məzmununda öz informativ yükünü saxlamaqdadır. Belə ki, müəllifin gəldiyi qənaətə görə, "Bozoxu" aşıq havasının musiqi dilinin bəzi xüsusiyyətləri bu nümunənin qaynaqlarını oğuz mənşəli bozoqlarla bağlamağa əsas verir. Havanın invariantının musiqi dilinin özəllikləri onun semantik məzmununda türk semiosferasının ən yayılmış rəmzlərindən biri olan ox – yay işarəsinin mühüm mənayaradıcı funksiyalarından xəbər verir. Türk xalqlarının bədii mədəniyyətinin mühüm semantеması kimi çıxış edən bu motivin quruluşu incəsənətin ən qədim inkişaf prinsiplərindən biri sayılan rekursiyanın təzahürü kimi də təfsir oluna bilər. Beləliklə, erkən epik yaradıcılığın araşdırılmasında sinergetikanın nəzəri-

[38] Утегалиева, С.И. Звуковой мир музыки тюркских народов: теория, история, практика (на материале инструментальных традиций Центральной Азии) / С.И. Утегалиева. – Москва: Композитор, 2013. – с.79.

metodoloji prinsiplərinin tətbiqi epik təfəkkürün bəzi qanunauyğunluqlarının üzə çıxarılmasına fayda verə bilər.

Birinci fəslin **“Kitabi-Dədə Qorqud” dastanının musiqi konseptsferasının araşdırılmasının sinergetik aspektləri”** adlı ikinci paraqrafında musiqi qorqudşünaslığının bəzi problemləri tədqiq olunur. Qeyd edilir ki, müasir elmi paradiqma kontekstində musiqi qorqudşünaslığının inkişafı türk xalqlarının musiqi tarixinin erkən və orta əsr mərhələlərinin araşdırılması üçün böyük perspektivlər aça bilər. Türk dünyasının ünlü epik abidələrindən biri olan “Kitabi-Dədə Qorqud” dastanı etno-estetik konseptlərin koqnitiv funksiyalarının araşdırılması baxımından böyük maraq kəsb edir. Müəllifin gəldiyi qənaətə görə, boyların mənayaratma prosesində “savaş”, “öygü”, “qutsallıq” və s. konseptlər daha böyük önəm daşıyır. “Kitabi-Dədə Qorqud” konseptsferasının önəmli tərkib hissələrindən birini “öygü” (gözəlləmə, tərifləmə, mədhiyyə) konsepti təşkil edir. Koqnitiv semantikanın müddəalarından çıxış edərək qeyd edə bilərik ki, ümümtürk tarixi-mədəni kontekstində həmin konsept kifayət qədər zəngin prototipik mənaya malikdir. Bu konseptin doğurduğu anımlar, allüziyalar sırasında ilk növbədə qədim türk abidələrini, Orxon-Yenisey yazılarını qeyd etmək lazımdır. “Kitabi-Dədə Qorqud” oğuznamələrində “öygü” konsepti bir qayda olaraq igidlik göstərən qəhrəmanları vəsf edən situasiyalarda reallaşır. Qəhrəmanlıq eposu olan “Kitabi-Dədə Qorqud” dastanının konseptsferasında, təbii ki, “savaş” konsepti xüsusi önəm daşıyır. Boyların mətnində müxtəlif tipoloji situasiyalarda təzahür edən bu konsept ayrı-ayrı toposlar və müxtəlif freymlər qismində təmsil olunmuşdur.

Bəzi hallarda “savaş” konsepti dastanın təhkiyə (boylama) bölmələrində ifadə olunur. Bu zaman hər bir seqmentin sonunda təkrarlanan cümlə-refren diskursa müəyyən bitkinlik gətirərək, onun ritmik quruluşunda nizam kəmiyyəti kimi çıxış edir.

“Kitabi-Dədə Qorqud” dastanının mətnində müxtəlif tarixi yaddaşa və semantik yükə malik olan konseptlər kogerentlik prinsipi əsasında uzlaşaraq yeni bir semantik müstəvi yaratmışlar. Sinergetik effekt prinsipi əsasında tədricən hər konseptə uyğun olaraq müvafiq ifadə vasitələri sistemi formalaşmışdır. Başqa sözlə, oğuznamələrin müəyyən inkişaf mərhələlərində hər formalaşmış konseptin musiqi

ekvivalenti mövcud idi. Bəzi hallarada müxtəlif moduslardan ibarət olan hər hansı bir konsept ayrı-ayrı freymlər vasitəsilə təfsir edilirdi. Bəzi soylamaların dastanın ayrı-ayrı boylarında təkrarı belə bir fərziyyə irəli sürməyə imkan verir ki, onların musiqi tərtibatı eyni olmuşdur. “Kitabi-Dədə Qorqud” dastanının hər bir boyu özündə prosodik cəhətdən zəngin olan təhkiyə, deklamasiya, ayıtma (reçitativ), mahnıvarilik (kantilena) vokal ifa tərzlərini, instrumental musiqi janrlarını cəmləşdirən iri həcmli mürəkkəb kompozisiya olmuşdur. Ümumiyyətlə, dastanda əks olunmuş musiqi janrları, boy mətnlərinin prosodik və artikulyasiya xüsusiyyətləri orta əsr türk musiqi mədəniyyətinin rəngarəng mənzərəsinə şəhadətlik edir.

“Kitabi-Dədə Qorqud” dastanının musiqi dilinin metr-ritmik xüsusiyyətlərinin bərpasının soylamaların ritmik təşkili əsasında aparılması mümkündür, çünki soylamalar musiqi ilə verbal mətnlərin üzvi şəkildə uzlaşmasının parlaq nümunəsidir. Boyların verbal mətninin xüsusiyyətləri həm də soylamaların melodik-intonasiya xüsusiyyətlərinin bərpası prosesində də müəyyən dərəcədə önəm daşıya bilər. Çox böyük ehtimalla qeyd etmək olar ki, soylamanın hər melomisrasının sonunda səslənən müəyyən dayaq tonları sonucda sintaktik bütövün (tiradanın) vahid müstəvisində qovuşaraq, müəyyən intonasiya sistemi yaradırdı. “Kitabi-Dədə Qorqud” dastanında soylamaların bəzi bədii vasitələri avaz yaratmaq məqsədi daşıyırdı. Məsələn, misraların əvvəlində səslənən alliterasiya, melomisraların eyni səsyüksəkliyindən başlamasına səbəb ola bilərdi. “Kitabi-Dədə Qorqud” dastanının musiqi dilinin bərpası problemlərinin bir qismini türk xalqlarının musiqi-epik yaradıcılığı nümunələrinin generativ qrammatikasını nəzərə alaraq həll etmək olar, çünki “*bizim günlərə qədər yazılı şəkildə gəlib çatmış epik abidələrı yalnız hal-hazırda da ifa olunan epos nümunələri ilə müqayisəli şəkildə dərk etmək mümkündür*”[39]. Məsələn, “savaş” konseptinə daxil olan freymlərdən birinin musiqi dilinin bərpasında Azərbaycan aşıqlarının bir sıra epik havalarının, “Alpamış”

[39] Жирмунский, В.М., Зарифов, Х.Т. Узбекский народный героический эпос / В.М. Жирмунский. – Москва: ОГИЗ, Государственное издательство художественной литературы, – 1947, – с.4.

dastanında ifa olunan bəzi aytımların melodik sintaksisinin qanunauyğunluqları mühüm rol oynaya bilər.

Beləliklə, qəhrəmanlıq eposunun ilkin inkişaf mərhələlərinin sinergetik aspektdə tədqiqi türk xalqlarının sakral, kosmoqonik, mifopoetik görüşləri və mental xüsusiyyətləri haqqında müəyyən bilgilər əldə etmək üçün imkan yaradır. Müasir elmi paradiqma kontekstində aparılan araşdırma nəticəsində aydın olur ki, "Kitabi-Dədə Qorqud" dastanının semantik müstəvisində müəyyən konseptlər xüsusi önəm daşıyır. Epik yaradıcılığın sonrakı mərhələlərində bu arxetipik koqnitiv modellərin təzahür formaları dissertasiya işinin növbəti fəsillərində araşdırılmışdır.

Dissertasiyanın **"Koroğlu" epik havalarının özününizam prinsipləri"** adlanan ikinci fəsli iki paraqrafdan ibarətdir. **"Koroğlu" eposunun tarixi-mədəni konteksti: mifik şüurla gerçəkliyin kəsişməsində"** sərlövhəli ilk paraqrafda qeyd olunur ki, türk etnosunun tarixi inkişaf yolunda X-XVI əsrləri əhatə edən orta dövr milli təfəkkürün təkamülü baxımından, etnik konsolidasiyaların yaranması nöqteyi-nəzərindən xüsusi önəmə malikdir. Bu tarixi kəsimdə müxtəlif süllalə və konfederasiyaların heqemon mövqeyə sahib olması, ayrı-ayrı dövlətlərin yaranması gərgin ictimai-siyasi, iqtisadi-sosial olaylarla müşayiət olunurdu. Bütün bu dönəmlərdə cərəyan edən hərbi-siyasi proseslərin ən dramatik anları türk etnosunun epik yaddaşının aktivləşməsinə təkan verirdi. Çox böyük ehtimalla qeyd etmək olar ki, bu taleyüklü məqamlarda türk xalqlarının konseptsferasında sosial ədalət və bərabərlik uğrunda mübarizənin rəmzi olan Koroğlu hiperkonsepti müxtəlif xalqların epik ifaçıları tərəfindən müəyyən zaman və məkana uyğun şəkildə təfsir edilirdi. Mənşəyi türk xalqlarının mifopoetikası ilə bağlı olan və mifoloji təfəkkürlə tarixi şüurun kəsişməsindən yaranan Koroğlu hiperkonsepti türk xalqlarının etnosinerjisini, onların passionarlıq potensialını parlaq şəkildə əks etdirirdi.

"Koroğlu" eposunun dərin semantik qatları genetik şəkildə türk xalqlarının mifopoetik sistemi ilə bağlıdır. Dastanın semiotik sistemində üzvi şəkildə kontaminasiya olunmuş mifik və tarixi elementlər onun bütün bədii sisteminə, o cümlədən musiqi dilinə təsir göstərmişdir. "Koroğlu" havalarının semantik məzmunu

türksoylu xalqların mifopoji görüşləri sisteminə xas olan binar oppozisiyalar (ikili qarşıdurmalar), fəzanın şaquli modeli və d. ünsürlərlə genetik şəkildə əlaqəlidir. "Koroğlu" eposunun mədəni-tarixi konteksti ilə bağlı olan problemlər müstəvisində Koroğlu epik havalarının müqayisəli tədqiqi türk xalqlarının musiqi təfəkkürünün bəzi özəlliklərinin üzə çıxarılması üçün zəmin yaradır. Bir sözlə, "Koroğlu" havalarının məzmunu eposun mənayaranma prosesinin özəllikləri, onun struktur-funksional quruluşu kontekstində təfsir edilməlidir. Müxtəlif milli variantların (Azərbaycan, türk, türkmən) əsasında bərpa olunan ümumtipoloji modeli bir qrup epik "Koroğlu" havalarının genotipi hesab etmək olar. Diaxronik baxış bucağından qeyd etmək olar ki, təzadlılıq prinsipi əsasında qurulan forma Koroğlu havaları silsiləsi üçün müəyyən mənada prototipik səciyyə daşıyır. Təhlilə cəlb olunan havaların məqam-intonasiya məzmununun kristallaşması bütün kompozisiya boyu müşahidə olunur ki, bu da, öz növbəsində, formayaranma prosesinə təsir göstərir. Bu baxımdan Koroğlu havalarını epik musiqi sisteminin müxtəlif tərkib hissələri arasında mövcud kogerentlik prinsipinin təzahürü hesab etmək olar. Aparılan təhlilin nəticəsində sübut olunmuşdur ki, "Koroğlu" havalarının musiqi dilinə qeyri-xətti proseslər xasdır. Bu, özünü, ilk növbədə, məqam-intonasiya və metr-ritm səviyyələrində fluktuasiyaların önəmli rolu əsasında büruzə verir. Təhlilə cəlb olunmuş havaların qeyri-xətti inkişaf prinsipi üzərində biçimlənmiş musiqi quruluşunda sinergetikanın fraktallıq kimi prinsipi də mühüm təşkiledici funksiyalar yerinə yetirir.

II fəslin ikinci paraqrafı **"Koroğlu" havalarının qeyri-xətti inkişaf dinamikası"** adlanır. "Koroğlu havaları" silsiləsinə daxil olan nümunələrin təhlili onların bəzi qrammatik qanunauyğunluqlarının üzə çıxarılmasına imkan vermişdir. "Koroğlu havaları"nın sinergetik prizmadan tədqiqi onların diaxronik nöqteyi-nəzərdən işıqlandırılması üçün də zəmin yaratmışdır. Aşkar edilmişdir ki, bütün mürəkkəb sistemlərdə olduğu kimi, bu nümunələrin təşkil etdiyi qeyri-xətti sistemdə də iki amilin rolu daha çox önəm daşıyır. Birinci amil qeyri-xətti sistemlərdə daxili özününizam mexanizminin təmin olunması, ikinci amil isə dissipasiya prosesləri ilə bağlıdır. Məlum olduğu kimi, hər bir

mürəkkəb sistemin mikrosəviyyəsində baş verən dissipativ proseslər nəticəsində onun makrosəviyyəsində yeni quruluşlar əmələ gəlir ki, bu da təkamülü təmin edən əsas amillərdən biridir. Hər bir mürəkkəb sistemdə önəmli rol oynayan ikinci amil özünün çoxfunksionallığı ilə seçilir. "*O, a) təkamülü yeni quruluş-attraktora tərəf yönəldir; b) sürətli inkişaf rejimi ilə proseslərin tədricən zəiflədiyi rejim arasında keçid funksiyasını yerinə yetirir; c) müxtəlif sürətlə inkişaf edən strukturlar arasında kogerentlik yaradaraq, onları vahid sistemdə birləşdirir*"[40]. Bu baxımdan "Koroğlu havaları" silsiləsini nəzərdən keçirəndə, onun əsasında duran prototip-modelin inkişaf mexanizmini müəyyən mənada LS-rejimi üzrə fəaliyyət göstərən sistemlərlə müqayisə etmək olar. Aparılan təhlil nəticəsində belə qənaət əldə olunmuşdur ki, "Koroğlu" dastanı ilə bağlı yeni havaların yaranma mexanizmini qeyri-xəttiliyin diffuziya məqamı olan şah pərdədən müxtəlif quruluş-attraktorlara – ayrı-ayrı məqam modellərə doğru hərəkət kimi təfsir etmək olar.

"Koroğlu" dastanı ilə bağlı olan epik havalar silsiləsi qeyri-xətti dinamikaya malik olan inkişaf yolu keçmişdir. Musiqi-epik yaradıcılığında LS və HS-rejimlərinin arası kəsilməyən mübadiləsi nəticəsində "Koroğlu" eposunun musiqi dilində müxtəlif quruluş-attraktorlar meydana gəlmişdir. Fərz etmək olar ki, həmin attraktorların quruluşunda erkən epik yaradıcılığına xas olan bəzi arxetiplərin özəllikləri təfsir olunmuşdur. Apardığımız araşdırmaya istinadən qeyd edə bilərik ki, "Koroğlu havaları" silsiləsi əsasən türk qəhrəmanlıq eposunun iki aparıcı konsepti olan "savaş" ("döyüş" və "yürüş" toposları) və "öygü" üzərində qurulmuşdur. Göstərilən konseptlərin hər biri müəyyən semantik dairəyə və səciyyəvi freymə malik olsa da, onların özünəməxsusluğunu təmin edən əsas nizam kəmiyyəti metr-ritmik sfera ilə bağlıdır. Belə ki, "döyüş" toposuna sərbəst metr-ritmik inkişafa malik olan reçitativ-deklamasiya (*senza misura)* üslubu xasdır. "Öygü" koseptində 6/8, "yürüş" toposunda isə 2/4 vəzni nizam kəmiyyəti kimi çıxış etmişdir. Eyni zamanda, bəzi "Koroğlu" havalarının tərkibində müşahidə olunan və "ahu-zar" ("Koroğlu" eposunun leksikonuna daxil olan söz birləşmələrindən

---

[40] Князева, Е.Н. Основания синергетики. Синергетическое мировидение / Е.Н.Князева, С.П.Курдюмов – Москва: КомКнига, – 2005, с. 64.

biri) intoneması üzərində qurulan melopoetik ünsürlər (*eydirmə, qaytarma*) bu nümunələrdə "savaş" konseptinin "ağı" koqnitiv modelinin müəyyən slotları ilə kontaminasiyasından xəbər verir. Bütün bu mülahizələri yekunlaşdıraraq belə nəticəyə gəlmək olar ki, "Koroğlu" eposunun bədii müstəvisində digər konseptlərlə yanaşı, həm də "Yuğ" mərasim poetikasınıın arxetipik xüsusiyyətləri təfsir olunmuşdur ki, bu da təhlilə cəlb etdiyimiz epik abidənin zəngin musiqi semantik məzmununu şərtləndirən əsas amillərdən biridir. Beləliklə, aparılmış araşdırmaya əsasən belə qənaətə gəlmək mümkündür ki, musiqi dilinin polisemantizmi ilə seçilən "Koroğlu" eposu Azərbaycan qəhrəmanlıq eposunun tarixi mənzərəsində özününizam proseslərinin parlaq təzahür formalarından biridir.

Dissertasiyanın **"Şah Xətayi: istilahdan hiperkonseptə doğru"** adlanan üçüncü fəsli iki paraqrafdan ibarətdir. **"Azərbaycan mənəvi-mədəni müstəvisində "Şah Xətayi" hiperkonseptinin təzahürü formaları"** başlıqlı ilk paraqrafda qeyd olunur ki, çoxəsrlik Azərbaycan tarixində XVI əsr taleyüklü, təzadlı proseslərlə zəngin olan dövrlərdən biridir. Bu dönəmdə yaranmış yeni ictimai-tarixi və mədəni-mənəvi kontekstdə Şah İsmayıl Xətayi ilə bağlı olan bütün bilik, hiss və assosiasiyaları (anımları) cəmləşdirən "Şah Xətayi" kimi mürəkkəb tərkibli hiperkonsept biçimlənmişdir. Polisemantizmi ilə seçilən bu konseptin dərin semantik qatlarında önəmli mədəni informasiya və milli-mental özəlliklər qorunub saxlanmaqdadır. "Şah Xətayi" hiperkonseptinin tərkibinə, digər arxetiplərlə yanaşı, həm də oğuz epik ənənəsinin səciyyəvi konsept və freymləri də daxil olmuşdur. Təbii ki, yeni ictimai-tarixi şəraitdə aktuallaşan əski konseptlər mürəkkəb hiperkonseptin tərkibində çulğalaşaraq əlavə semantik çalarlar əldə etmişdir.

"Şah Xətayi" hiperkonsepti Azərbaycan mədəniyyəti və incəsənətinin müxtəlif sahələrində bu və ya digər dərəcədə təzahür etmişdir. Azərbaycan konseptsferasının önəmli vahidlərindən biri olan bu hiperkonseptin biçimlənməsi, gəldiyimiz qənaətə görə, bilavasitə Şah İsmayıl Xətayinin yaradıcılığı ilə bağlıdır. O dövrə aid məxəzlərdə "Böyük Sufi" adlandırılan Şah İsmayıl Xətayinin yaradıcılığında qədim türk qəhrəmanlıq epik salnaməsi üçün səciyyəvi olan "qutsallıq" konsepti yeni semantik çalarlarla

zənginləşmişdir. Şah Xətayi fəaliyyətinin bütün sahələrində (istər siyasi-ictimai, istər dini-ideoloji, istərsə də ədəbi-bədii olsun) təzahür etmiş həyat kredosunun təməl daşını "Biz imam qullariyüz sadiqanə; Şəhidlik, qazilik nişanımızdır" kimi konseptual semantema təşkil etmişdir. Bu baxımdan, təsadüfi deyil ki, Xətayinin adı ilə bağlı olan hiperkonseptdə "qutsallıq" və "savaş" konseptləri çox vaxt kontaminasiya halında çıxış etmişdir.

Aparılan araşdırma nəticəsində belə nəticə hasil olmuşdur ki, ənənəvi musiqi kontekstində "Şah Xətayi" istilahı ilk əvvəl rəməl bəhrinin müəyyən metr-ritmik modusuna əsaslanan freymə şamil edilmişdir. Divani şeir formasının və eyniadlı aşıq havalarının XVI əsrdə, Şah İsmayıl Xətayi dövründə yaradılmasını nəzərə alsaq, sözügedən freymin xronotopunu "XVI əsr, Məmləkəti-Qızılbaş" kimi dəqiqləşdirmək olar. Müəyyən olunmuş freym çağdaş ənənəvi Azərbaycan musiqisində "Şah Xətayi" muğam guşəsində və "Ayaq divani" aşıq havasında təzahür etməkdədir.

Azərbaycan epik yaradıcılığının inkişaf tarixində Xətayi mərhələsi müəyyən mənada bifurkasiya məqamı ilə müqayisə oluna bilər, çünki məhz bu dövrdən etibarən ümumilikdə ozan - aşıq sənəti tamamilə yeni bir məcrada inkişaf etməyə başlamışdır. Məhz bu dönəmdə ürfani, təsəvvüf məzmunu ilə zənginləşmiş ozan-aşıq bədii sistemi növbəti inkişaf mərhələsinə qədəm qoymuşdur. Bu tarixi dönəmi sinergetik kontekstdə səciyyələndirərkən, belə qənaətə gəlmək olar ki, müəyyən mənada nizam kəmiyyəti funksiyasını yerinə yetirən bu mərhələ bütövlükdə Azərbaycan aşıq sənətinin bənzərsizliyini və özünəməxsusluğunu təmin edən əsas məqamlardan biri olmuşdur.

Aşıq yaradıcılığında "Şah Xətayi" hiperkonseptinin ən parlaq və dolğun təcəssüm formalarından biri aşıq Qurbaninin yaradıcılığına təsadüf edir. Səciyyəvidir ki, çağdaş dövrümüzə qədər epik ənənədə "Şah Xətayi" aşıq havaları silsiləsinə daxil olan əksər havaların yaranması da məhz aşıq Qurbaninin fəaliyyəti ilə əlaqələndirilir.

Üçüncü fəslin **"Şah Xətayi" hiperkonsepti ilə bağlı olan aşıq havalarının qeyri-xətti inkişaf dinamikası"** adlı ikinci paraqrafında qeyd olunur ki, müxtəlif tarixi-semantik qatları özündə çulğalaşdıran və poligenezisi ilə seçilən **"**Şah İsmayıl" dastanı da "Koroğlu" eposu

və “Əsli - Kərəm” dastanı kimi, özünəməxsus havacata malik olan epik əsərdir. Epik yaradıcılığın poetikasını, onun daxili qanunauyğunluqlarını nəzərə alaraq, belə qənaətə gəlmək olar ki, Şah İsmayıl Xətayinin adı ilə bağlı olan epik havalar eyniadlı dastanla birgə, onun bədii sistemi daxilində yaranmışdır. Təsadüfi deyil ki, bu günə kimi epik yaddaşda “Şah Xətayi” aşıq havaları silsiləsinə daxil olan “Şah Xətayi”, “Heydəri” və “Sultanı” havalarının denotatları kimi Şah İsmayıl Xətayinin özü, onun atası Şeyx Heydər və qardaşı Şeyx Sultan Əli, “Osmanlı divanisi” havasının desiqnatı kimi isə osmanlı türkləri müəyyən olunur. Qeyd olunan faktlar Azərbaycan qəhrəmanlıq eposunun musiqi dilinin diaxronik aspektdən araşdırılması nöqteyi-nəzərindən böyük maraq kəsb edir. Digər tərəfdən, sözügedən nümunələr ənənəvi musiqidə tarixi şəxsiyyətlərin “musiqi portretləri”nin yaradılması baxımından da nəzərə çarpan məqam hesab edilə bilər.

Aparılan təhlil nəticəsində aydın olur ki, “Şah Xətayi” aşıq havaları silsiləsinə daxil olan havaların intonasiya inkişafında qeyri-xətti prinsiplər önəmli təşkiledici funksiyalar yerinə yetirir. Təhlilə cəlb olunan bir sıra aşıq havalarının məqam-intonasiya qatının dramaturji inkişafı müəyyən dərəcədə LS-rejimi səciyyəli proseslər arasında paralel aparmağa imkan vermişdir. Eyni zamanda aparılmış təhlil nəticəsində aydın olur ki, “Şah Xətayi” aşıq havaları silsiləsinə daxil olan əksər havaların məqam quruluşunun məntiqi əsasını fluktuasiyalardan irəli gələn müəyyən intonasiya əlaqələri təşkil edir. Beləliklə, biz bir daha aşıq havalarının məqam-intonasiya dramaturgiyasında qeyri-xətti prinsiplərin təşkiledici rolunun şahidi oluruq.

“Şah Xətayi” silsiləsinə daxil olan aşıq havalarının metr-ritmik təşkilində də qeyri-xətti inkişaf prinsipləri təşkiledici funksiyalar yerinə yetirir. “Heydəri” aşıq havası ilə “Osmani” zərbi-muğamı arasında aparılan müqayisəli təhlil belə qənaətə gəlməyə imkan verir ki, epik musiqi nümunəsinin metr-ritmik təşkili nəzərə çarpan dərəcədə qeyri-xətti inkişaf prinsiplərinə əsaslanır.

“Şah Xətayi” silsiləsinə daxil olan aşıq havalarının özünəməxsus semantik çalarlarının yaranmasında metr-ritmik xüsusiyyətlərin rolu az deyil. Məsələn, əldə olunan qənaətə görə,

“Osmanlı divanisi” havasının musiqi dilində “savaş” konseptinin reprezentativ xüsusiyyətlərindən biri məhz onun metr-ritmik qatı ilə bağlıdır. Həmin nəticə havanın əsas metr-ritmik formulunun Azərbaycan musiqisinin digər janrlarına xas olan ritmik xüsusiyyətlərlə müqayisəli təhlili nəticəsində əldə edilmişdir.

“Şah Xətayi” silsiləsinə daxil olan aşıq havalarının quruluşunda fraktallıq prinsipinin önəmli rolu vardır. Apardığımız araşdırmadan aydın olduğu kimi, qeyri-xətti inkişaf prinsipi üzrə biçimlənən havaların bədii sistemində fraktallıq müəyyən təşkiledici, formayaradıcı funksiya yerinə yetirir. Təhlilə cəlb etdiyimiz havalarda özünəbənzərlik prinsipi müxtəlif formalarda təzahür edir.

“Şah Xətayi” aşıq havaları silsiləsinə daxil olan nümunələr həm də koqnitiv paradiqma kontekstində böyük maraq kəsb edir. Məsələn, “Şah İsmayılı” havasının quruluşunun dərin qatlarında etnik təfəkkür tərzinin bəzi xüsusiyyətləri özünü büruzə verir. Belə ki, havanın intonasiya formasının inkişafı özək funksiyasını yerinə yetirən müəyyən intonemanın tədricən yeni dönmələrlə zənginləşməsi prinsipi ilə bağlıdır. Dissertasiyanın bu bölməsində “Şah İsmayılı” havasının instrumental girişinin intonasiya formasının inkişaf prinsipi Azərbaycan dilinin mənsub olduğu aqqlütinativ (iltisaqi) dillər qrupuna xas olan leksik-qrammatik qaydalarla müqayisə edilir. Belə fərziyyə irəli sürülür ki, təhlil olunan havanın intonasiya quruluşunda aqqlütinasiya kimi linqvistik prinsip öz əksini tapmışdır.

Beləliklə, zəngin tarixi semantikası, məqam-intonasiya və metr-ritmik səviyyədə qeyri-xətti inkişaf prinsiplərinin rəngarəngliyi ilə seçilən “Şah Xətayi” aşıq havaları silsiləsi Azərbaycan qəhrəmanlıq eposunun inkişaf tarixində xüsusi mərhələ təşkil edir.

Dissertasiyanın dördüncü fəsli Ü.Hacıbəylinin “Koroğlu” operasının təhlilinə həsr olunub. **“Üzeyir Hacıbəylinin “Koroğlu” operası etnosinerjinin təzahürü kimi”** adlanan fəsil iki paraqrafdan ibarətdir. **“Üzeyir Hacıbəylinin “Koroğlu” operasının mədəni-tarixi konteksti”** başlığı daşıyan ilk paraqrafda göstərilir ki, XX əsrin 20-30-cu illərində Azərbaycan xalqının milli-mənəvi sinerjisi, onun qəhrəmanlıq eposunun ənənələri Ü.Hacıbəylinin yaradıcılığında təzahür etmişdir. Bəstəkarın “Koroğlu” operası o

dövrdə Azərbaycanda cərəyan edən batin milli-azadlıq mücadiləsinin inikasıdır.

Ü.Hacıbəylinin yaradıcılığında aşıq musiqisinin təzahürünü müasir elmi paradiqma kontekstində intertekstual dialoq kimi səciyyələndirmək olar. Bu prosesi Azərbaycan mədəniyyətinin geniş tarixi inkişafı rakursunda səciyyələndirərək, belə fikir irəli sürmək olar ki, milli bəstəkarlıq məktəbinin özünəməxsus üslubunun formalaşmasında sözügedən mətnlərarası dialoqun müstəsna rolu olmuşdur. Ü.Hacıbəylinin əsərlərində aşıq yaradıcılığının təzahürünü koqnisiya prosesi kimi də təfsir etmək olar. Qeyri-xətti dinamikaya malik olan bu mental prosesin nəticəsində tədricən bəstəkarın əsərlərində epik yaradıcılığın daha dərin qanunauyğunluqları və müxtəlif koqnitiv modelləri öz təfsirini tapmışdır. Bu koqnitiv sxemdə aşıq yaradıcılığı üçün səciyyəvi olan forma, metr-ritmika, intonasiya-məqam, aqogika resurslarından tutmuş tarixən formalaşmış topos və fəza-zaman epik kateqoriyalarınadək ünsürlər əks etdirilmişdir. Ü.Hacıbəylinin "Koroğlu" operası bəstəkarın yaradıcılığında müşahidə olunan mətnlərarası dialoqun kulminasiyasını təşkil etmişdir. Bu əsərdə epik sənətin özünəməxsus cəhətlərinin təfsiri tamamilə yeni bədii müstəvidə, koqnisiya prosesinin daha yüksək səviyyəsində baş tutmuşdur. "Koroğlu" operasının mənayaranma prosesində epik yaradıcılığın arxetipik qanunauyğunluqları önəmli rol oynamışdır. Epik təfəkkürdən irəli gələn xüsusiyyətlər opera əsərinin müxtəlif səviyyələrində özünü büruzə vermişdir. Həm dissertasiya müəllifi tərəfindən yazıya alınan "Koroğlu" dastanının, həm də opera librettosunun struktur-funksional təhlili onların quruluşunda invariant funksiyaların müəyyən sintaqmatik ardıcıllığını üzə çıxarmışdır. Bundan əlavə, operanın ədəbi əsasında dastan diskursuna xas olan bəzi morfoloji qanunauyğunluqlar da aşkar olunmuşdur. Eyni zamanda, belə nəticə hasil olur ki, opera librettosu dastanın quruluşundan fərqlənən narrativ xüsusiyyətlərə də malikdir. Onların arasında konfliktin xeyli dərəcədə gərginləşməsinə gətirən mətnyaranma intensivliyini, sintaqmaların kontaminasiyasının nəticəsi olaraq temporitmin dinamikləşməsini və s. qeyd etmək olar.

**“Üzeyir Hacıbəylinin “Koroğlu” operasında epik koqnitiv modellərin təfsiri”** başlıqlı ikinci paraqrafda qeyd olunur ki, əsərin mənayaranma prosesində arxetipik qanunauyğunluqların aşkar edilməsi son dərəcə mürəkkəb elmi problemdir. Müasir elmi paradiqmanın bəzi metodoloji prinsiplərinə əsaslanaraq aparılmış təhlil “Koroğlu” operasının musiqi dilində qəhrəmanlıq eposunun səciyyəvi konsept və freymlərinin təzahürünü aşkar etməyə imkan vermişdir. Gəldiyimiz qənaətə görə, operanın musiqi üslubunun formalaşmasında önəmli rol oynayan freymlərdən biri döymə (şikəstə) olmuşdur. “Koroğlu” operasının musiqi materialında döymə freyminin təzahür formaları müxtəlifliyi ilə seçilir. Əsərdə “aşıq musiqisi koloriti”ni yaratmaq üçün bəstəkar bilavasitə, yaxud dolayısı olaraq həmin freymin səciyyəvi xüsusiyyətlərindən (ilk növbədə metr-ritmik ünsürün ikiplanlı quruluşu nəzərdə tutulur) istifadə etmişdir. “Koroğlu” operasının quruluşunda həmin freymin əhəmiyyətli rolu bir də onunla təsdiqlənir ki, o, operada yalnız “Şikəstə” adlanan nömrənin deyil, həm də əsərin bəzi digər fraqmentlərinin struktur əsasını təşkil edir.

Operanın semantik müstəvisində qəhrəmanlıq eposunun tarixən formalaşmış konseptsferası təşkiledici rol oynayır. Əsərdə təfsir edilən semantik vahidlərdən Azərbaycan qəhrəmanlıq eposunun konseptsferasının önəmli ünsürləri olan “öygü”, “savaş” kimi konseptlərin xüsusi yeri vardır. Aparılan müşahidələrdən görünür ki, operanın bəzi fraqmentlərində epik yaradıcılığın ayrı-ayrı konseptlərinin uzlaşması baş verir. Operanın semantik sintaksisində türksoylu xalqların epik musiqi yaradıcılığının universal qanunauyğunluqları öz təzahürünü tapmışdır. Apardığımız araşdırmaya əsasən qeyd etmək olar ki, operada önəmli semantik yükə malik olan üsyan etmiş xalqın leytmotivinin əsasında türk xalqlarının epik Koroğlu havalarının ümumtipoloji modeli durur. Müasir musiqişünaslığın metodoloji prinsipləri kontekstində belə bir mülahizə irəli sürmək olar ki, Uvertüranın ilk mövzusu əslində çoxsaylı milli və fərdi variantlar üzrə paylanmış “Koroğlu” musiqi-epik metamətninin reduksiyasına dair parlaq bir misaldır. Bundan əlavə, Uvertüranın giriş mövzusunun ilk seqmenti musiqidə fraktallığın təzahürünə dair təkrarsız bir misal hesab edilə bilər. İlk

növbədə vurğulamaq lazımdır ki, həmin seqmentin özül qatı sazın Şah pərdə kökü səsləri üzərində qurulmuşdur. Maraqlıdır ki, bu səslər girişin ilk seqmentinin başlanğıc, orta və final pozisiyalarında simmetrik qaydada qərarlaşmışdır. Uvertüranın ümumi tonal planının bəzi seqmentləri (giriş *–c-şur*, köməkçi *–g-bayatı-şiraz,* koda - B-dur), habelə *c-şur*dan B-dura doğru hərəkətin baş sintaqmatik oxu onun ilk on bir taktının özül qatında proqramlaşdırılmışdır. Beləliklə, fraktallıq haqqında müşahidələrimizi yekunlaşdıraraq qeyd etməliyik ki, ənənəvi aşıq havaları üçün səciyyəvi olan miqyaslı invariantlıq prinsipi "Koroğlu" operasının Uvertürasının məqam-intonasiya səviyyəsində də özünü büruzə verir.

Əsərin həqiqi simfonizm ruhu ilə aşılanan mürəkkəb və şaxələnmiş dramaturgiyasında epik sənətin ən qədim konseptləri dərin ümumiləşdirmələrin daşıyıcılarına çevrilirlər. Apardığımız təhlildən də bəlli olur ki, əsərin semantik müstəvisində önəmli əhəmiyyətə malik olan üsyan etmiş xalqın mövzusu, məhəbbət leytmotivi, Koroğlunun IV pərdədə oxuduğu aşıq havaları və d. musiqi nömrələrinin biçimlənməsində epik sənətin konsept və freymləri önəmli rol oynamışdır. Bundan əlavə, analitik əməliyyatlar nəticəsində aşkar edilmişdir ki, Ü.Hacıbəyli musiqisində aşıq sənətinin tipik xüsusiyyətləri özünü musiqi quruluşunun ən müxtəlif səviyyələrində büruzə verir. Burada biz intonasiya dramaturgiyasını, metr-ritmi, harmoniyanı, formayaradan ifadə vasitələrini və hətta ifaçılıq aqogikasını (söhbət aşıq sənəti üçün səciyyəvi olan səs mimesisi ünsürlərindən gedir: özünəməxsus forşlaqlar, zəngulələr, Koroğlunun döyüş çağırışını ifadə edən nidalar və s.) nəzərdə tuturuq.

"Koroğlu" operasında aşıq musiqisinin təfsiri xüsusiyyətlərini işıqlandırarkən bir məqamı da vurğulamaq lazımdır ki, melodik sintaksis səviyyəsində motivlərin ayrılması, onların təzadlı müqayisəsi və yaradıcılıq baxımından yenidən fikir süzgəcindən keçirilməsi nəticəsində epik musiqi təfəkkürünün səciyyəvi freymləri intensiv simfonik inkişaf prosesinə məruz qalırlar. Ümumiləşdirmə apararaq, belə qənaətə gəlmək olar ki, Ü.Hacıbəylinin əsərlərində "milli musiqi sintaksisinə xas olan motiv ayırmaları ilə klassik işlənmə arasında uzlaşma nöqtələrinin" (Abezqauz) aşkar edilməsi

faktını bəstəkarın kəşflərindən biri kimi dəyərləndirilmək olar. Məlum olduğu kimi, məhz bu bədii kəşf milli bəstəkarlıq məktəbində sonata formasının meydana gəlməsi üçün zəmin yaradan əsas amillərdən biri olmuşdur. Beləliklə, sonata-simfonik priyomlarının geniş tətbiqi, leytmotiv sisteminin rolunun artması, obraz-intonasiya materialının intensiv inkişafı belə bir fikir yürütməyə imkan verir ki, "Koroğlu" operasında əsas musiqili-dramaturji prinsip məhz simfonizmdir. Yeri gəlmişkən qeyd edək ki, Ü.Hacıbəyli tərəfindən aşıq havalarının musiqi quruluşunun ən müxtəlif səviyyələrində aşkar edilən işlənmə elementləri kompleksi Azərbaycan bəstəkarlıq məktəbinin növbəti nəsillərinə məxsus nümayəndələrin yaradıcılığında da öz inkişafını tapmışdır.

"Koroğlu" operasının mənayaranma prosesində musiqi təfəkkürünün tarixən formalaşmış iki tipinin (Şərq və Qərb), musiqi-ifadə vasitələrinin iki müxtəlif sisteminin çarpazlaşması xüsusi önəmə malikdir. Bu baxımdan "Koroğlu" operasında dünya musiqi mədəniyyətinin fərqli bədii sistemlərinin attraktorlarının kontaminasiyasına dair olduqca maraqlı nümunələr aşkar etmək mümkündür. Məsələn, operanın semantik müstəvisində böyük əhəmiyyətə malik olan qalib gəlmiş xalqın leytmotivi əsasında "savaş" konseptinin tərkib hissələrindən biri olan "yürüş" toposu ilə Qərb musiqisinin "marş" janrının kontaminasiyası baş vermişdir. Bu baxımdan özündə ozan-aşıq sənətinin konseptlərini Avropa klassik musiqisinin konseptləri ilə uzlaşdıran "Koroğlu" operası dünya musiqi tarixində koevolyusiyanın parlaq nümunəsidir.

**Nəticə** hissəsində Azərbaycan qəhrəmanlıq eposunun azman müstəvisində etnosinerjinin təzahür formalarının tədqiqi yekunlaşdırılır, onun özününizam prinsipi əsasında inkişaf edən mürəkkəb quruluşunun bütün tərkib hissələrinin bir-birini tamamlamasına dair əsas müddəalar diqqətə çatdırılır və belə bir fikir vurğulanır ki, sinergetik paradiqmanın təməl anlayışlarının tətbiqi epik musiqinin bədii fenomen kimi dəyərləndirilməsi üçün yeni üfüqlər açır.

Azərbaycan qəhrəmanlıq eposunun çoxəsrlik inkişaf tarixinin hər bir önəmli, taleyüklü məqamının faza məkanı (sinergetik anlamda) alternativ inkişaf yollarının müxtəlifliyi ilə seçilirdi.

Aparılan təhlilin sonucunda belə nəticə hasil olur ki, bir qayda olaraq hər bir yeni yaranan faza məkanında inkişaf əskidən bəri biçimlənmiş attraktorlara – məzmun etibarilə yeni semantik çalarlarla zənginləşmiş konseptlərə doğru yönəlirdi. Aşkar edilmiş bu qanunauyğunluq Azərbaycan qəhrəmanlıq eposunun musiqi ünsürünün ənənəviliyini, qırılmaz inkişafını təmin edən əsas amillərdən biri olmuşdur.

Azərbaycan qəhrəmanlıq eposunun musiqi ünsürünün keçdiyi inkişaf yolunun əsas faza məkanlarına retrospektiv baxış bucağından yanaşıldıqda, aşağıdakı mənzərənin şahidi oluruq:

- Erkən epik yaradıcılığın zirvəsi olan "Kitabi-Dədə Qorqud" dastanında qəhrəmanlıq eposunun sonrakı inkişaf mərhələlərində attraktor qismində çıxış edən müəyyən konseptlərin ("savaş", "öygü", "qutsallıq", "ağı" bə s.) biçimlənməsi;
- "Koroğlu" eposunda bu konseptlərdən bəzilərinin təzahürü və yeni toposlarla zənginləşməsi;
- XVI əsrdə onların aktuallaşması və müxtəlif koqnitiv modellərlə kontaminasiyası;
- XX əsrdə türk dünyasının əski konseptlərinin tamamilə fərqli bədii sistemlərlə koevolyusiyası.

Azərbaycan qəhrəmanlıq eposunun konseptsferasının əsas konseptlərinin zaman-məkan bağlılığı (xronotopları**)** xalqın ictimai həyatının, onun passionarlığının və mənəvi tarixinin mühüm məqamları ilə üst-üstə düşür. Bu mülahizələrimizin sonucunda belə bir nəticə hasil olur ki, Azərbaycan qəhrəmanlıq eposunun əsas inkişaf mərhələləri ilə Azərbaycan tarixinin taleyüklü dönəmləri arasında qırılmaz bir sinerji mövcuddur.

Azərbaycan qəhrəmanlıq eposunun musiqi dilinin immanent xüsusiyyətləri və humanitar elmlərdə qəbul olunmuş dövrləşməyə istinadən tədqiqat obyektimizin inkişaf tarixinin əsas mərhələlərini aşağıdakı şəkildə təqdim etmək olar:

1. Ən qədim türk dövrü – yeni eradan əvvəl dördüncü minillikdən eramızın V əsrinə qədər (miflər, yaradılış dastanları və s.);
2. Qədim dövr – V-X əsrlər ("Kitabi-Dədə Qorqud" dastanı və d. oğuznamələr);
3. Orta dövr – X-XVI əsrlər ("Koroglu" dastanı və s.);

4. Yeni dövr – XVI-XX əsrin başlanğıcı (“Şah İsmayıl” dastanı);

5. Ən yeni dövr – XX əsrin ilk onilliyindən sonrakı dövr (Ü.Hacıbəylinin “Koroğlu” operası və s.).

Sinergetik paradiqma kontekstində Azərbaycan qəhrəmanlıq eposunun nəhayətsiz semantik müstəvisini fraktallıq kimi universal prinsipin parlaq təzahürü olaraq təfsir etmək mümkündür. Belə ki, öz qaynaqlarını prototürk mifologiyasından götürən, qədim türk dövründə Dədə Qorqud boylarında təzahür edən, sonrakı önəmli tarixi dönəmlərdə müxtəlif dastanlarda yeni semantik çalarla zənginləşən və nəhayət, XX əsrdən başlayaraq fərqli bədii sistemlərlə kogerentlik halında uzlaşaraq fəaliyyət göstərən Azərbaycan qəhrəmanlıq eposunun konseptsferasını miqyaslı invariantlıq prinsipi üzərində qurulan fraktal obyekt hesab etmək olar.

Dissertasiyanın tədqiqat obyektinin inkişaf tarixinin əsas mərhələləri üzrə aparılan araşdırmanın nəticələrini bu şəkildə ümumiləşdirmək mümkündür:

- Qəhrəmanlıq eposunun təşəkkül dövrünün tədqiqinın sinergetik aspektləri türk xalqlarının erkən yaradıcılığını idrak prosesinin təzahürü kimi təsvir etməyə imkan yaradır. Sinergetik paradiqmanın metodoloji prinsiplərinin tətbiqi nəticəsində türksoylu xalqların qədim ayinləri və mifoloji-ritual fəlsəfəsinə xas olan qeyri-xəttilik təfəkkür tərzinin əlamətləri haqqında müəyyən elmi-nəzəri təsəvvür formalaşdırmaq mümkündür. Qədim türklərin sakral, mifoloji görüşləri və mental özəllikləri onların mənəvi mədəniyyətinin bütün tərkib hissələrinə, o cümlədən də çalğı alətlərinə öz təsirini göstərmişdir. Erkən bədii təfəkkürün nişanələri bu gün də bəzi epik musiqi nümunələrinin (məsələn, “Bozoxu” havasının) dərin semantik qatlarında özünün informativ yükünü saxlamaqdadır;

- Azərbaycan qəhrəmanlıq eposunun mühüm mərhələsini təşkil etmiş “Kitabi-Dədə Qorqud” dastanı özündə kogerentlik prinsipi əsasında ritual-mifoloji sistemin koqnitiv modellərini və sonrakı tarixi dönəmlərə aid olan etno-estetik konseptləri cəmləşdirən mürəkkəb bir bədii sistemdir. Bu monumental epik əsərin hər bir boyu özündə prosodik, artikulyasiya cəhətdən fərqlənən təhkiyə, deklamasiya, ayıtma (reçitativ), mahnıvarilik (kantilena) vokal ifa

tərzlərini, instrumental musiqi janrlarını cəmləşdirən iri həcmli mürəkkəb kompozisiya olmuşdur. Ümumiyyətlə, "Kitabi-Dədə Qorqud" dastanının mətnində əks olunmuş musiqi janrları, boylamaların prosodik xüsusiyyətləri orta əsr türk musiqi mədəniyyətinin zənginliyindən xəbər verir;

- Freym semantikasının müddəalarından çıxış edərək belə söyləmək olar ki, zaman ötdükcə, tədricən boyların müəyyən situasiyaları və obrazları konkret quruluş – freymlə uzlaşmağa başlayırdı. Boyların ifası zamanı sinergetik effekt nəticəsində müəyyən toposlar ayrı-ayrı ifadə vasitələri ilə əlaqəyə girərək, "Kitabi-Dədə Qorqud" dastanının mənayaratma prosesində böyük önəm daşıyan konseptlərin ("savaş", "öygü", "qutsallıq" və s.) inkişafına təkan vermişdir. Çox böyük ehtimalla qeyd etmək olar ki, oğuznamələrin müəyyən inkişaf mərhələlərində hər bir konseptin oturuşmuş musiqi ekvivalenti mövcud idi;

- Dastanın topikası və konsept dairəsi ilə bağlı olan məsələlərin araşdırılması onun musiqi dilinin bərpası üçün də zəmin yaradır. Türk qəhrəmanlıq eposunun musiqi dilinin araşdırılması üçün bu amil son dərəcə önəmli bir məsələdir, çünki sinkretizmin bariz nümunəsi olan epik abidələrin konseptsferasını və özününizam mexanizminin ümumi şifrəsini açmadan, onların musiqi qatını tədqiq etmək qeyri-mümkündür;

- "Kitabi-Dədə Qorqud" dastanının musiqi dilinin bərpasında onun verbal mətni və daha geniş kontekstdə qədim türk şeirinin bəzi metr-ritmik qanunauyğunluqları, onun özününizam prinsipləri əsas istiqamətverici amillərdən biri funksiyasını yerinə yetirir. Boyların mürəkkəb bədii sistemində soylamaların fonetik, morfoloji, sintaktik və s. xüsusiyyətləri kogerentlik prinsipi əsasında musiqi ünsürü ilə uzlaşaraq, eyni müstəvidə inkişaf etməyə başlamışdır;

- Apardığımız araşdırmanın sonucunda belə nəticə hasil olmuşdur ki, soylamanın hər melomisrasında mövcud olan ritmik tənəffüs və onun nəticəsində əmələ gələn təqtilər nizam kəmiyyəti qismində çıxış etmişdir. Qeyri-xətti sistemlərdə tabelilik prinsipinin rolunu nəzərə alaraq qeyd etmək olar ki, epik melodikanın təşəkkülündə göstərilən amil həlledici rol oynamışdır. Hecaların bərabərsizliyi ilə səciyyələnən alliterasiyalı qədim türk şeiri kontekstində heca vəzninin və ona uyğun

olan yeni havaların yaranmasını sinergetik baxımdan aşağıdakı tənlik vasitəsilə təsvir etmək olar:

$$N \approx \frac{\beta - \sigma}{\beta - \sigma - 1}$$

Göstərilən formulda β – qeyri-xəttiliyin təzahürü olan heca sərbəstliyinin, σ – diffuziya məqamının, yəni hər bir təqtinin sezurunu bildirən göstəricidir. Çöx böyük ehtimalla belə bir fikir irəli sürmək olar ki, oğuznamələrin musiqi ifası zamanı sabit heca ətrafında gəzişmə nəticəsində müəyyən attraktorlara (8-hecalı; 11-hecalı şeirlər) doğru inkişaf baş vermişdir;

- Dastanın musiqi dilinin bərpası problemlərini həm də türk xalqlarının musiqi-epik yaradıcılığı nümunələrinin generativ qrammatikasının özəlliklərinin nəzərə alınması şərti ilə həll etmək mümkündür. Göstərilən metodoloji müddəalara əsasən dissertasiyada etnomusiqişünaslıq elmində ilk dəfə olaraq "Kitabi-Dədə Qorqud" dastanının soylamalarından birinin musiqi dilinin törədici modelinin bərpasına cəhd göstərilmişdir;

- Azərbaycan qəhrəmanlıq eposunun önəmli mərhələsini təşkil etmiş "Koroğlu" eposunun özününizam sistemində müxtəlif tarixi yaddaşa malik olan konsept və toposlar, mifik və tarixi ünsürlər çulğalaşaraq, onun musiqi qatı da daxil olmaqla, bütün tərkib hissələrinə təsir göstərmişdir. "Koroğlu" eposu ilə genetik şəkildə bağlı olan epik havaların semantik sintaksisinin kodu yalnız türk xalqlarının mifopoetik sisteminə xas olan binar oppozisiyalar və fəzanın şaquli modeli kontekstində dərk edilə bilər;

- Dissertasiya müəllifi tərəfindən yazıya alınmış "Koroğlunun Ərzincan səfəri" qolunun morfoloji təhlili qəhrəmanlıq eposunun bəzi diskursiv qanunauyğunluqlarını üzə çıxarmışdır. Əldə edilən qənaətə görə, dastan mətninin struktur-tipoloji təhlili ifa olunan epik havaların semantik məzmununun açılmasına müəyyən dərəcədə yardım göstərə bilər;

- "Koroğlu" havaları silsiləsinin struktur-tipoloji təhlili onları müəyyən qrammatik qanunauyğunluqlara malik olan vahid bədii sistem kimi təfsir etməyə imkan verir. Azərbaycan, türk və türkmən

variantlarının müqayisəli təhlili əsasında bərpa olunmuş ümumtipoloji modeli "Koroğlu" epik havalarının genotipi hesab etmək olar;

- "Koroğlu" havalarının tarixi inkişaf dinamikasını sinergetik prizmadan nəzərdən keçirərkən belə nəticə hasil olmuşdur ki, türk xalqlarının musiqi təfəkkürünün bariz nümunəsi olan bu melotipin funksional xüsusiiyyətləri arasında qeyri-xətti prinsiplər xüsusi önəm daşıyır. Əldə edilən qənaətə görə, "Koroğlu" havalarının arxetipinin mikrosəviyyəsində baş verən dissipativ proseslər nəticəsində müəyyən inkişaf mərhələsində sistemin makrosəviyyəsində yeni quruluşlar (havalar) əmələ gəlmişdir. Bu zaman "Koroğlu" ümumtipoloji modelinin mərkəzi seqmenti hesab olunan şah pərdə qeyri-xətti proseslərin bifurkasiya məqamı kimi çıxış etmişdir;

- Müasir sinergetikanın aktual problemlərindən biri olan attraktorların bərpası məsələsi bilavasitə mürəkkəb sistemlərdə nizam kəmiyyətinin təyin edilməsi ilə bağlıdır. Göstərilən müddəa "Koroğlu" epik havalarının tarixi inkişafının bəzi məqamlarının dərk edilməsi istiqamətində mühüm metodoloji prinsip kimi çıxış etmişdir. Çox böyük ehtimalla qeyd etmək olar ki, epik yaradıcılığın qeyri-xətti mühitindəki attraktorların quruluşunda erkən epik ifaçılığında təşəkkül tapmış bəzi arxetiplərin özəllikləri yeni səpkidə təfsir olunmuşdur. "Koroğlu havaları" silsiləsini vahid bədii sistem, azman bir mətn kimi nəzərdən keçirdikdə belə qənaətə gəlmək olar ki, o, əski türk qəhrəmanlıq eposunun başlıca olaraq iki aparıcı konsepti üzərində pərvəriş tapmışdır: "savaş" ("döyüş" və "yürüş" topusları) və "öygü";

- Azərbaycan epik yaradıcılığının uzunəsrlik tarixi inkişaf yolunda Xətayi dönəmini sinergetik anlamda bifurkasiya məqamı kimi səciyyələndirmək mümkündür. Məlum olduğu kimi, məhz bu tarixi mərhələdə təsəvvüf dünyagörüşü ilə çulğalaşan türk epik yaradıcılığı yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. XVI əsr Azərbaycan tarixinin ziddiyətli ictimai-sosial və mədəni-mənəvi mühitində "Şah Xətayi" kimi mürəkkəb tərkibli hiperkonsept biçimlənmişdir. Bu hiperkonseptdə Azərbaycan mənəviyyatının rəmzlərindən biri, müasirləri tərəfindən "Sahibi seyf vəl-qələm" ("Qılınc və qələm sahibi") adlandırılan Şah İsmayıl Xətayi şəxsiyyətinin ən önəmli cəhətləri (urfanilik və qəhrəmanlıq) öz

inikasını tapmışdır. İfadə planında semantik paradiqma şəklində təzahür edən bu hiperkonsept müxtəlif tarixi dönəmlərə aid olan freymlərdən ibarətdir. Apardığımız araşdırma nəticəsində belə bir fikir yürütmək olar ki, həm muğam, həm də aşıq sənətində təzahür etmiş "Şah Xətayi" hiperkonsepti şifahi ənənəli Azərbaycan musiqi konseptsferasının önəmli tərkib hissələrindən biridir;

- Şifahi ənənəli professional Azərbaycan musiqisi kontekstində apardığımız diaxronik təhlil bizi belə qənaətə gətirmişdir ki, "Şah Xətayi" istilahı bu mədəni mühitdə ilk əvvəl rəməl bəhrinin müəyyən metr-ritmik modusuna əsaslanan freymə şamil edilmişdir. "Ayaq divani" ("Osmanlı divanisi") aşıq havasının və divani şeir formasının Şah İsmayıl Xətayi dövründə meydana gəlməsi faktı nəzərə alınaraq, sözügedən freymin xronotopu "XVI əsr, Səfəvilər dövləti" kimi müəyyənləşdirilmişdir. Təhlilə əsasən belə qənaətə gəlmişik ki, çağdaş Azərbaycan ənənəvi musiqisi kontekstində həmin freym "Şah Xətayi" muğam guşəsi və "Ayaq divani" ("Osmanlı divanisi") aşıq havasının quruluşunun əsasını təşkil edir;

- "Şah İsmayıl" dastanı ilə üzvi şəkildə bağlı olan epik havaların ("Baş divani", "Sultanı", "Şah Xətayi", "Şahsevəni", "Heydəri", "Ayaq divani") müasir elmi paradiqma kontekstində araşdırılması orta çağ aşıq yaradıcılığı haqqında müəyyən bilgilər əldə etməyə imkan yaradır. "Şah Xətayi" silsiləsinə daxil olan aşıq havalarının araşdırılması nəticəsində belə nəticə hasil olmuşdur ki, "Baş divani", "Sultanı", "Şah Xətayi", "Heydəri" və s. havaların musiqi dilinə qeyri-xətti proseslərin təzahürü, məqam-intonasiya və metr-ritm səviyyələrində fluktuasiyaların formayaradıcı rolu xasdır;

- XX əsrin birinci yarısında Azərbaycan qəhrəmanlıq eposunun sinerjisi, onun özününizam prinsipləri daha dolgun, yüksək bədii səviyyədə məhz Üzeyir Hacıbəylinin yaradıcılığında təzahür etmişdir. Bəstəkarın "Koroğlu" operasını göstərilən tarixi kəsimin ziddiyyətli şəraitində cərəyan edən batin milli-azadlıq mücadilə və müqavimətinin ən parlaq inikası hesab etmək olar;

- Generativ qrammatikanın metodoloji prinsipləri işığında Ü.Hacıbəylinin əsərlərində epik metamətnin qanunauyğunluqlarının əks olunması prosesini intertekstual dialoq kimi səciyyələndirmək olar. Bu mürəkkəb, qeyri-xətti dinamikaya malik olan prosesi

koqnitiv reaksiyalar sistemi kimi qiymətləndirərək, belə qənaətə gəlmək mümkündür ki, tədricən bəstəkarın əsərlərində epik yaradıcılığın daha dərin qanunauyğunluqları və müxtəlif koqnitiv modelləri öz təfsirini tapmışdır. Ü.Hacıbəylinin yaradıcılığında bu koqnitiv proses epik üslubun zahiri əlamətlərindən başlayaraq onun mətnyaranma prosesinin dərin qanunauyğunluqlarının dərkinədək böyük bir təkamül yolu keçmişdir. Əldə olunmuş elmi nəticələri daha geniş mədəni-tarixi kontekstdə səciyyələndirərək, belə fikir irəli sürmək olar ki, Azərbaycan milli bəstəkarlıq məktəbinin özünəməxsus üslubunun formalaşmasında sözügedən mətnlərarası dialoqun tarixi rolu olmuşdur. Belə qənaət hasil olur ki, bu intertekstual dialoqun nəticəsində arxaik ozan-aşıq mətnləri əlavə məna çalarları əldə etmiş, bəstəkarın yaradıcılığı isə tamamilə yeni cizgilərlə zənginləşmişdir;

- Ü.Hacıbəylinin bütün yaradıcılıq yoluna diaxronik baxımdan nəzər saldıqda, qənaətə gəlmək olar ki, bəstəkarın "Koroğlu" operası mətnlərarası dialoqun zirvəsini təşkil etmişdir. Bu əsərə müasir elmi paradiqma müstəvisindən yanaşıldıqda qeyd etmək lazımdır ki, bəstəkar epik mətnyaranma prosesinin mexanizmini dərk edərək, operada koqnisiya prosesinin daha yüksək səviyyəsində onun qanunauyğunluqlarının təfsirçisi kimi çıxış etmişdir. Aparılmış təhlil nəticəsində belə bir nəticə hasil olur ki, operanın kompozisiya və struktur-semantik səviyyələrində epik təfəkkürün ən müxtəlif xüsusiyyətləri öz orijinal təfsirini tapmışdır. Müasir elmi paradiqmanın bəzi prinsiplərinə istinadən "Koroğlu" operasında qəhrəmanlıq eposunun səciyyəvi konsept və freymlərinin təzahür formalarının aşkarlanmasına cəhd göstərilmişdir. Müəllifin fikrincə, bu səpkidə aparılan araşdırmalar "Koroğlu" operasının bədii-tarixi kodunun dərk edilməsi istiqamətində yeni çığırlar aça bilər;

- Dissertasiya müəllifi tərəfindən yazıya alınan "Koroğlu" eposundan "Koroğlunun Ərzincan səfəri" qolunun opera librettosu ilə müqayisəli, struktur-funksional təhlili onların quruluşunda invariant funksiyaların müəyyən sintaqmatik ardıcıllığını üzə çıxarmışdır. Bundan əlavə, operanın ədəbi əsasında dastan diskursuna xas olan bəzi morfoloji qanunauyğunluqlar da aşkar olunmuşdur. Eyni zamanda, belə bir nəticə gündəmə gəlir ki, opera librettosu dastanın

quruluşundan fərqlənən narrativ xüsusiyyətlərə də malikdir. Onların arasında konfliktin xeyli dərəcədə gərginləşməsinə gətirən mətnyaranma intensivliyini, sintaqmaların kontaminasiyasının nəticəsi olaraq temporitmin dinamikləşməsini və s. qeyd etmək olar;

- Operanın semantik müstəvisində türk qəhrəmanlıq epik yaradıcılığında tarixən formalaşmış koqnitiv modellər öz əksini tapmışdır. Əgər ozan-aşıq sənətinin şifahi, variativ təbiətini açıq qeyri-xətti fəzaya bənzətsək, belə bir qənaətə gəlmək olar ki, bəstəkarın yaradıcılıq axtarışları nisbətən sabit attraktor quruluşlara ("savaş", "öygü" və s.) doğru yönəlmişdi. Epik sənətin müəyyən konseptlərinin dərin tarixi-semantik qatlarının özünəməxsus şəkildə bərpası və aktuallaşdırılması Ü.Hacıbəylinin tətbiq etdiyi tarixi yeniliklər siyahısına daxil edilə bilər. Bəstəkarın operasında türk konseptsferasında "mübarizlik" modusunun rəmzi olan "Koroğlu" hiperkonseptinin təfsiri deyilənlərə misaldır. Əsərin yaranma xronotopu (sovet imperiyasının tarixində ən faciəvi dövrlərdən biri olan XX əsrin 30-cu illərini) və ən başlıcası, Ü.Hacıbəylinin milli məfkurəsinin xüsusiyyətləri nəzərə alınarsa, ehtimal etmək olar ki, "Koroğlu" konseptinin Stalin repressiyaları dövründə yenidən gündəmə gətirilməsi mövcud ideologiyaya, müdhiş gerçəkliyə qarşı bir etiraz idi. Operanın Uvertürasının artıq ilk xanələri, heç şübhəsiz ki, Koroğlu konseptinin "Biz xalqın və Haqqın qılıncıyıq" kəlməsində ifadə olunan yenilməz ruhunu təcəssüm etdirdi. Aparılmış təhlilin sonucunda belə nəticə əldə olunur ki, üsyan etmiş xalqın leytmotivinin məqam-intonasiya əsasını türk oğuz qrupuna aid olan xalqların epik Koroğlu havalarının ümumtipoloji modeli təşkil edir. Semantik sintaksis baxımından belə bir mülahizə irəli sürülür ki, Uvertüranın ilk mövzusu çoxsaylı milli və fərdi vaiantlar üzrə paylanmış "Koroğlu" musiqi-epik metamətninin reduksiyasına dair səciyyəvi bir misaldır;

- Dünya musiqisi tarixi kontekstində "Koroğlu" operasını koevolyusiyanın, yəni özünəməxsus inkişaf templərinə malik olan mürəkkəb strukturların (burada ozan-aşıq sənəti və Avropa bəstəkarlıq yaradıcılığı nəzərdə tutulur – K.D.) bir bədii sistem daxilində uzlaşmasının unikal nümunəsi hesab etmək olar. Bu baxımdan Ü.Hacıbəylinin tarixi nailiyyəti ondan ibarət idi ki, o, türk

epik yaradıcılığının koqnitiv modellərinin Avropa musiqi yazısı ilə uyğunlaşması (adaptasiya) mexanizmini açmağa müvəffəq olmuşdur. Məsələn, aşıq havalarının sintaqmatik quruluşunun bütün səviyyələri üçün səciyyəvi olan total variantlıq, qeyri-tersiya strukturu və onların harmonik vertikalının sonorluğu, motiv bölünməsi və işlənməsinin spesifik priyomları, polimetrik quruluşunun özünəməxsusluğu bəstəkarın fərdi üslubunun ayrılmaz hissəsini təşkil etmişdir. Ü.Hacıbəylidən başlayaraq, aşıq musiqisi Azərbaycan bəstəkarlıq məktəbinin əsas üslub ünsürlərindən birinə çevrilmişdir. Əgər nəzərə alsaq ki, Azərbaycan bəstəkarlıq məktəbi özünün formalaşması dövründə bifurkasiya vəziyyətində, yəni müxtəlif mümkün təkamül yollarının şaxələnməsi nöqtəsində olmuşdur, onda qətiyyətlə söyləmək olar ki, milli musiqi üslubunun özünəməxsusluğunun əldə edilməsində epik yaradıcılıq önəmli rol oynamışdır.

Araşdırmanı yekunlaşdıraraq vurğulamağa ehtiyac vardır ki, etnosinerjinin parlaq inikası olan Azərbaycan qəhrəmanlıq eposu dünya mədəni irsinin bitkin fenomenidir. Müasir dövrün idrak prosesinin yeni konsepsiyasını ehtiva edən sinergetik paradiqmaya görə, sonsuz inkişafda olan sistemlərin çağdaş durumundan həm onların təkamül yolunun keçmiş mərhələləri, həm də gələcək vəziyyəti haqqında müəyyən informasiya əxz etmək mümkündür. Aparılmış təhlilin sonucunda əldə olunmuş qənaətlərə əsaslanaraq proqnozlaşdırmaq olar ki, qaynaqları prototürklüyün "energetik müstəvisinə" (Perqolezi) söykənən, inkişafı isə nəhayətsiz gələcəyə ünvanlanan qəhrəmanlıq eposunun koqnitiv modelləri Azərbaycan xalqının həyatı ilə bağlı taleyüklü məqamlarda zühur edərək, onun passionarlığını təmin edən əsas amillərdən biri olacaqdır.

**Dissertasiyanın məzmununa uyğun olaraq müəllifin aşağıdakı əsərləri çap olunmuşdur:**


1. Дадаш-заде, К.Г. Музыкальное коркудоведение: реальность и перспективы // – Москва: Музыкальная Академия, – 2002, № 2, – с. 218-220.
2. Dadaş-zadə, K.H. Türkdilli xalqların epik yaradıcılığının tədqiqində müqayisəli təhlilin rolu haqqında // Müqayisəli sənətşünaslıq: nəticələr və perspektivlər. I Elmi-tədqiqat konfransı, – Bakı: – 2003, – s.34-37.

3. Дадаш-заде, К.Г. Традиционное искусство // Культурная политика в Азербайджане – Баку: НагылЭви, – 2004, – с. 116-120.
4. Dadaş-zadə, K.H. Epik əsərlərin musiqi hermenevtikası problemlərinə dair // "Ortaq Türk Keçmişindən Ortaq Türk Gələcəyinə". V Uluslararası Folklor Konfransı. Bakı: 17-19 oktyabr, – 2007, – s. 312-314.
5. Dadash-zade, K.H. The application of the modern scientific theories in the fielf of studying the epic music// – Bakı: Mədəniyyət dünyası, – 2008. № XV, – s.149-152.
6. Dadaş-zadə, K.H. "Bozoxu" havasının tarixi morfologiyasına dair // – Bakı: Musiqi dünyası, – 2011. № 4/49, – s. 59-62.
7. Дадаш-заде, К.Г. Архетипические закономерности либретто оперы «Кероглу» Узеира Гаджибейли //– Bakı: Mədəniyyət dünyası, – 2011. № XXI, – с. 206-211.
8. Дадаш-заде, К.Г. Культурно-исторический контекст проблемы «Узеир Гаджибейли и ашыгская музыка»: [электронный ресурс] / – Bakı: Harmony. 30.11.2012 http://harmony.musigidunya.az/rus/reader.asp?txtid=689&s=1
9. Dadaş-zadə, K.H. Azərbaycan aşıq sənəti // Azərbaycan musiqi tarixi / Layihənin rəhbəri və elmi redaktoru Z.Y. Səfərova. – Bakı: Şərq-Qərb, - c.1. – 2012, – s. 60-93.
10. Dadaş-zadə, K.H. Qəhrəmanlıq eposunun araşdırılmasının sinergetik aspektləri // – Bakı: Musiqi dünyası, – 2012. № 2/51, – s. 44-48.
11. Dadaş-zadə, K.H. Mədəniyyətlərarası dialoqda sinergetikanın rolu // "Qloballaşma şəraitində kulturoloji innovasiyalar və sosial-mədəni inkişaf". Beynəlxalq konfransın materialları. Bakı: 21-22 dekabr, – 2012, – s. 85-87.
12. Dadaş-zadə, K.H. Dastan kompozisiyasının araşdırılmasının sinergetik aspektləri // – Bakı: Musiqi dünyası, – 2013. № 3/56, – s. 97-99.
13. Dadaş-zadə, K.H. "Koroğlu" epik havalarının qeyri-xətti inkişaf dinamikası // – Bakı: Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Elmi Əsərləri, – 2013. № 16, – s. 128-134.

14. Дадаш-заде, К.Г. Восхождение (Узеир Гаджибейли и ашыгское искусство: интертекстуальный диалог / К.Г.Дадаш-заде. – Баку: Şərq-Qərb, – 2014. – 232 с.
15. Дадаш-заде, К.Г. О диалоге текстов. //Узеир Гаджибейли (архивные материалы, эссе, очерки, статьи) – Bakı: Şərq-Qərb, – 2014, – с. 249-254.
16. Дадаш-заде, К.Г. Синергетический аспект проблемы «фольклор и композитор» (на примере оперы Узеира Гаджибейли «Кероглу») // «Истоки и эволюция литературы и музыки тюркских народов»: Материалы Международной конференции, – Казань, 23-24 сентября, –2014, – с.264-267.
17. Дадаш-заде, К.Г. О некоторых особенностях художественной организации эпических напевов «Кероглу» // «Театр ва кино санъати таълими: муаммо ва ечимлар» Конференция материаллары туплами, – Тошкент, 2015, – с. 94-103.
18. Dadaş-zadə, K.H. Şifahi ənənəli Azərbaycan musiqisində "Şah Xətayi" konseptinin təzahürünə dair // Azərbaycan muğamşünaslığı: problemlər, perspektivlər – Bakı: Təknur, – 2015, – s. 211-215.
19. Dadaş-zadə, K.H. "Şah Xətayi": istilahdan konseptə doğru // "Muğam aləmi" IV Beynəlxalq Musiqişünaslıq Simpoziumunun Materialları, – Bakı: 12-14 mart, – 2015, – s. 70-77.
20. Dadash-zade, K.H. To the issue of music self-organization of epic art // Eeuropean Science and Technology. Materials of the X İnternational Research and Practice Conference, – Munich, Germany: May 28-29, – 2015, – p. 54-56.
21. Dadaş-zadə, K.H. "Kitabi-Dədə Qorqud" dastanının musiqi konseptsferasına dair // Türk epos mədəniyyəti və "Kitabi-Dədə Qorqud" dastanı" mövzusunda elmi-nəzəri konfransın materialları, – Bakı: 26-27 oktyabr, – 2015, – s. 14-18.
22. Dadaş-zadə, K.H. Ü.Hacıbəylinin "Koroğlu" operasında türk epik konseptlərinin təzahürünə dair// Ədəbiyyat incəsənətin qarşılıqlı inikası kontekstində. Məqalələr toplusu – Bakı: Qərb Universiteti, 2016, – s. 93-103.

23. Дадаш-заде, К.Г. Культурно-исторический контекст создания оперы «Кероглу» Узеира Гаджибейли //– Алматы: Поиск, – 2016. № 4, – с. 87-92.
24. Дадаш-заде, К.Г. Особенности процесса адаптации эпического искусства к социокультурной среде современного города (на примере творчества азербайджанских ашыгов) // "Şəhər və teatr" mövzusunda elmi-praktiki konfransın materialları, – Bakı: 2016, – s. 69.
25. Dadaş-zadə, K.H. "Şah Xətayi"konsepti ilə bağlı olan aşıq havalarının qeyri-xətti inkişaf dinamikasına dair // "Qloballaşan dünyada musiqi ənənələri" I Beynəlxalq elmi-praktiki konfrans, – Bakı: – 26-27 oktyabr, 2017, – s.138-142.
26. Дадаш-заде, К.Г. Узеир Гаджибейли и искусство ашыгов: интертекстуальный диалог // Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri. XVII Beynəlxalq elmi-praktiki konfransın materialları, – Bakı: 2018, – s. 34-37.
27. Dadaş-zadə, K.H. "Kitabi-Dədə Qorqud" dastanının bəzi koqnitiv modellərinə dair// International Society for Music Education. 33rd World Conference. Turkic Session, – Bakı: – 15-20 iyul, 2018, – s. 150-154.
28. Dadaş-zadə, K.H. Aşıqşünaslığın tarixi və nəzəriyyəsi. Ali musiqi məktəbləri üçün dərslik / K.H. Dadaş-zadə. – Bakı: ADMİU, – 2019. – 159 s.
29. Дадаш-заде, К.Г. Роль Узеира Гаджибекова в формировании национального стиля композиторской школы Азербайджана //– Москва: Музыка и время, – 2019. № 10, – с. 10-13.
30. Dadaş-zadə, K.H. Azərbaycan ənənəvi musiqisinin tədrisində koqnitivizm prinsiplərinin tətbiqinə dair // İSME Legacy Conference, – İstanbul: – September 4-7, 2019, – s. 369-373.
31. Дадаш-заде, К.Г. К проблеме музыкальной самоорганизации эпического искусства (на примере азербайджанского героического эпоса) // – Москва: Проблемы музыкальной науки, – 2020. №4, – с. 199-205.
32. Dadaş-zadə, K.H. Epik yaradıcılığın araşdırılmasının koqnitiv aspektləri / /– Bakı: Mədəniyyət dünyası, – 2021. № XXXX, – s. 12-17.

33. Дадаш-заде, К.Г. Когнитивные аспекты проблемы «эпическое искусство и композитор» // «Современное музыкальное образование». Материалы XIX Международной научно-практической конференции, – Санкт-Петербург: – РГПУ им. А.И. Герцена, – 8-10 декабря, 2021, – с. 227-229.
34. Dadaş-zadə, K.H. “Kitabi-Dədə Qorqud” boylarının artikulyasiya xüsusiyyətləri // – Bakı: Elmi əsərlər, ADMİU, 2022, – № 31, – s. 56-61.
35. Дадаш-заде, К.Г. О некоторых особенностях претворения искусства ашыгов в опере Узеира Гаджибейли «Кёроглу» // – Москва: Музыкальное искусство Евразии. Традиции и современность, – 2022. № 12, – с.38-47.
36. Dadash-zade, K.H. On the Music-Synergetic Processes of Epic Art // – Kyiv: Bulletin of Kyiv National University, – 2022.Vol.5, №1, – p. 6-13. - http://musical-art.knukim.edu.ua › article › download
37. Dadaş-zadə, K.H. EPOS: Epos Paradiqmaların Olağanüstü Sinerjisi/ K.H.Dadaş-zadə. Bakı: – ADMİU, – 2023. – 346 s.
38. Dadaş-zadə, K.H. Üzeyir Hacıbəylinin “Koroğlu” operasında epik koqnitiv modellərin təfsirinə dair // Azərbaycan Bəstəkarlar İttifaqında keçirilən Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivallarından elmi məqalələr. Bakı: Mütərcim, – 2024, – s.82-94.

Dissertasiyanın müdafiəsi 4 iyun 2024-cü il tarixində saat 11⁰⁰ Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının nəzdində fəaliyyət göstərən BED 2.36 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1014, Bakı şəhəri, Şəmsi Bədəlbəyli küçəsi 98.

Dissertasiya ilə Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyaları Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 4 may 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 01.05.2024

Kağızın formatı: 60x84 1/16

Həcm: 78 675 işarə

Tiraj: 100